7 oktyabr 2022 №74 (1947)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması Praqada müzakirə olunub



Prezident İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etmək üçün Praqaya səfər edib.

Praqada Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü keçirilib.

Dövlət başçısı "Avropa siyasi birliyi" Zirvə Toplantısının açılış plenar iclasında və "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda dəyirmi masada iştirak edib.

"Avropa siyasi birliyi" qitənin ölkələri arasında siyasi əlaqələndirmə platformasıdır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. Zirvə toplantısında 44 ölkənin dövlət və hökumət başçıları iştirak edirlər.

Sammit çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş olub. Söhbətə Fransa Prezidenti Emmanuel Makron da qoşulub.

Oktyabrın 6-da axşam Praqada Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə dördtərəfli görüş də keçirilib.

## İşğaldan azad edilmiş əraziləri yenidən qurmaq bizim milli ideyamızdır

Oktyabrın 5-də BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb.

Foruma BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif və 44 ölkədən nümayəndələr qatılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Mərasimdə çıxış edən dövlət başçısı BMT-nin belə bir mötəbər tədbirinin Ağdamda keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb: "İndi görə bilərsiniz ki, bir zamanlar həyat dolu olan şəhərdən heç nə qalmayıb. O, dağıdılıb, işğal dövründə dağıdılıb. Ağdam Birinci Qarabağ müharibəsi dövründə dağılmamışdı. O, sonradan, demək olar ki, otuz il ərzində daşları bir-bir sökülməklə dağıdılıb, bütün binalar viran qoyulub və sökülüb, daşlar oğurlanıb və satılıb... Burada – Ağdamda gördüklərinizi Qarabağ ərazisində hər bir kənddə görə bilərsiniz. Bilirəm ki, qonaqlarımız buraya təyyarə ilə yeni tikilmiş Füzuli Hava Limanına gəliblər. Füzuli şəhəri tamamilə dağıdılıb. Bir tikili belə qalmayıb. Eynilə Cəbrayıl, eynilə Qubadlı, Zəngilan da. Bütün binaların dağıdılmadığı yeganə yerlər Şuşa, Laçın və qismən Kəlbəcər olub. Lakin bunun səbəbi odur ki, Ermənistan dövləti müxtəlif ölkələrdən olan erməniləri işğal edilmiş ərazilərdə yerləşdirmək üçün qanunsuz məskunlaşma siyasəti yürüdürdü...".

**_davamı səh. 2-də_**

## Ədəbiyyat üzrə Nobel mükafatı fransız yazıçıya verilib




2022-ci il Ədəbiyyat üzrə Nobel mükafatı fransız yazıçı Anni Ernoya (Annie Ernaux) verilib.

Nobel Komitəsinin oktyabrın 6-da yaydığı məlumatda qeyd olunur ki, Anni Erno "şəxsi yaddaşın mənşəyini, özgələşməsini və kollektiv çərçivəsini ifşa etdiyi cəsarət və cərrahi dəqiqliyə" görə mükafata layiq görülüb.

Xatırladaq ki, bundan öncə isveçli genetik Svante Peebo tibb və fiziologiya, fransalı fizik Alen Aspekt, amerikalı fizik Con Frensiz Klozer, avstriyalı fizik Anton Tsaylinger fizika, amerikalı kimyaçılar Karolin Bertotsi və Karl Barri Şarpless, danimarkalı kimyaçı Morten Meldal kimya üzrə mükafatı qazanıblar.

Oktyabrın 7-də sülh və oktyabrın 10-da iqtisadiyyat üzrə Nobel mükafatlarının laureatları açıqlanacaq. Mükafatlar dekabrın 10-da, Alfred Nobelin anım günündə sahiblərinə təqdim olunacaq.

# Bakıda böyük kitab bayramı

### "Hər bir xalqın böyüklüyü onun ədəbiyyatının zənginliyi və kitaba münasibətindən də asılıdır"

Paytaxtımız növbəti beynəlxalq kitab bayramına ev sahibliyi edir. 2009-cu ildə əsası qoyulan Bakı Beynəlxalq Kitab Sərgisi 8-ci dəfə kitabla bağlı və kitaba bağlı olan hər kəsi – naşirləri, yazarları, kitabın çapı, yayımı ilə məşğul olan təsisatları, kitabxanaları, bu sahədə aidiyyəti dövlət qurumlarını, ən nəhayət, oxucuları bir araya gətirib.



Oktyabrın 5-də Bakı Ekspo Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə VIII Bakı Beynəlxalq Kitab Sərgisinin açılışı keçirildi.

Açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam, bir neçə ölkənin Azərbaycandakı səfirləri, millət vəkilləri, elm və mədəniyyət xadimləri, digər qonaqlar iştirak edirdilər.

Mərasimdə giriş sözü söyləyən Baş nazirin müavini Əli Əhmədov qonaqları salamladı. Qeyd etdi ki, kitab bəşəriyyətin və insanların həyatında çox mühüm yer tutan atributlardan biridir: "Əsrlər boyu kitab insanı müşayiət edib, onlara biliklər verib. Hətta göylərdən gələn məsləhətlər, müqəddəs kəlamlar da insanlara kitablar vasitəsilə çatdırılıb. Doğrudur, bugünkü dövrdə elm və texnikanın inkişafı ilə əlaqədar insan həyatında kitabın rolunu oynayan digər vasitələr meydana gəlib. Bütün bunlara baxmayaraq kitab insan həyatında yenə də öz yerini tutmaqdadır".

Dövlətimiz tərəfindən elmə, kitaba böyük diqqət yetirildiyini söyləyən Əli Əhmədov Azərbaycanın kitabla bağlı illər boyu formalaşmış ənənələrinə hər zaman sadiq olduğunu vurğuladı: "Bunun bariz nümunələrindən biri artıq səkkizinci dəfədir ki, ölkəmizdə keçirilən Bakı Beynəlxalq Kitab Sərgisidir. Ümid edirəm ki, sərgi kitabın təbliğinə və yayılmasına öz töhfəsini verəcək".

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, hər bir xalqın böyüklüyü, onun ədəbiyyatının zənginliyi həm də kitaba və nəşriyyata olan münasibətindən asılıdır: "Əsrlər boyu yazarlarımız, mütəfəkkirlərimiz dünya ədəbiyyatına zəngin töhfələr veriblər. Bununla da Azərbaycanı ədəbiyyat və fikir məkanı kimi dünya xəritəsinə yerləşdiriblər".

**_davamı səh. 3-də_**

## "Azərbaycan və qədim şəhərləri"

### İlber Ortaylı kitabını Bakıda təqdim edib

Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində məşhur türkiyəli tarixçi, elm xadimi İlber Ortaylının "Azərbaycan və qədim şəhərləri" ("Azerbaycan ve kadim şehirleri") kitabının təqdimat mərasimi keçirilib.

Təqdimatda çıxış edən müəllif bildirib ki, Türkiyə ilə Azərbaycan, sadəcə, siyasi birlik baxımından bir araya gələn ölkələr deyil, ortaq mədəniyyət, din, dil, sənət biliklərinə sahib məkanlardır. Bu iki dövləti birləşdirən bir çox dəyərlər, mənəvi bağlar var.

İlber Ortaylı çıxışında türk ədəbiyyatı və tarixi ilə bağlı bir çox konseptual məqamlara toxunub. Alim XIV-XV əsrlərdə yaşamış hürufizm tərəfdarı İmadəddin Nəsimidən bəhs edərkən mütəfəkkir şairin ədəbi dili zənginləşdirmək üçün danışıq dilində və şifahi xalq ədəbiyyatındakı bənzətmə, kəlam və deyimlərdən istifadə etdiyini vurğulayıb. Bildirib ki, Nəsiminin müasirləri Mustafa Zərir, Qazi Bürhanəddin, Qasım Ənvar və Qiyasəddin Əhməd türk dilində yazıblar.




Alim bildirib ki, XVI əsrdə Səfəvi hökmdarları I İsmayıl və I Təhmasibin hakimiyyət dövrü Azərbaycan dilinin və ədəbiyyatının tarixində ən parlaq dövr hesab edilir. Şah İsmayıl Xətaidən başlayaraq təqribən bir əsr boyunca Səfəvi imperiyasında Azərbaycan dili sarayda, orduda və məhkəmədə istifadə edilib. Dövrün qızılbaş eliti linqvistik ideologiya və Azərbaycan dilində ədəbiyyatın inkişafına öz töhfəsini verib. Bu dövrdə İraqda yaşamış, azərbaycanca, farsca, ərəbcə yazan Məhəmməd Füzuli Azərbaycan poeziyasının klassiki hesab edilir.

Tarixçi alim ona ünvanlanan sualları cavablandırıb, iki qardaş ölkənin tarixi-ədəbi mətnlərini ortaq ədəbiyyat kontekstindən təhlil predmetinə çevirib.

Sonda İlber Ortaylı kitabını oxucular üçün imzalayıb.

## Natəvanın özbək dilinə tərcümə edilmiş kitabının təqdimatı




Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə özbək dilinə tərcümə olunmuş Azərbaycanın tanınmış şairi Xurşidbanu Natəvanın kitabının oktyabrın 6-da VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində təqdimatı keçirilib. Kitabı özbək dilinə özbəkistanlı şairə Şəhla Qasımova tərcümə edib.

Təqdimat mərasimində AMM-in direktoru Samir Abbasov, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov və özbək şairə Xosiyat Rüstəm çıxış ediblər.

Bildirilib ki, nəşrdə Natəvanın əsərləri həm Azərbaycan, həm də özbək dilində təqdim olunur. Bundan başqa, şairənin irsi, əl işləri, çəkdiyi rəsmlər kitabda əksini tapıb.

Diqqətə çatdırılıb ki, akademik Rafael Hüseynovun ön söz yazdığı kitab "Şuşa İli" münasibətilə nəşr edilib.

Qeyd edək ki, sərgidə Özbəkistandakı Heydər Əliyev adına AMM-in stendində Azərbaycana dair özbək dilinə tərcümə edilmiş nəşrlər sərgilənir.

## "İrəvan necə varsa: keçmişdən bu günə"

### Qədim yurd yerimizin tarixi-mədəni irsi haqqında kitab

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "İrəvan necə varsa: keçmişdən bu günə" kitabı çapdan çıxıb. VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 5-də Bakı Ekspo Mərkəzində kitabın təqdimatı keçirildi.




Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov qədim Azərbaycan torpağı olan İrəvandakı mədəni irsimizin tədqiqi və təbliğinin önəmindən söz açdı: "İrəvanda Azərbaycan mədəniyyətinə, tarixinə aid çoxlu izlər, əsərlər var ki, geniş ictimaiyyətə təqdim edilməlidir. Eyni zamanda beynəlxalq səviyyədə biz bu işi görməliyik. Əsrlər boyu İrəvan torpağında olan mədəni irsimizin dağıdılması, saxtalaşdırılması kimi faktlar diqqətdən kənarda qalıb. Ona görə də İrəvanda, Zəngəzurda olan mədəni irsimizi tədqiq edərək ictimaiyyətin diqqətinə çatdırmalıyıq. Bu sahədə alimlərimizin üzərinə çox önəmli iş düşür".

Anar Kərimov qeyd etdi ki, Mədəniyyət Nazirliyi tərəfindən qonşu ölkələrin arxivlərində araşdırmalar aparılacaq: "Türkiyə, İran, Rusiya və Gürcüstanın arxivlərində araşdırmalara başlayacağıq ki, belə elmi mənbələr, bu sahədə olan kitablarımız daha da çoxalsın. Belə layihələrimiz çox olmalıdır. "İrəvan necə varsa: keçmişdən bu günə" bu layihə üzrə nəşr olunan ilk kitabdır".

**_davamı səh. 4-də_**

Musiqi məktəbi müəllimlərinin ifasında "Arşın mal alan"



**_səh. 4_**

Beynəlxalq Muğam Mərkəzi ölkəmizi Mərakeşdə Sufi Mədəniyyəti Festivalında təmsil edəcək

**_səh. 8_**



Moskvada Azərbaycan heykəltəraşlarının sərgisi

**_səh. 8_**

№74 (1947)
7 oktyabr 2022
www.medeniyyet.az

# Ağdamda Natəvanın qəbirüstü abidəsi bərpa edilib

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonuna səfər ediblər. Səfər zamanı rayonun işğaldan azad olunmuş ərazilərində, o cümlədən Ağdam şəhərində bərpa-quruculuq və infrastruktur layihələri ilə bağlı təməlqoyma mərasimləri olub.



Prezident və birinci xanım Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını ediblər.

Məlumat verilib ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayı və İmarət kompleksidir. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Ağdam şəhəri 1993-cü ildə işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də ermənilər tərəfindən dağıdılıb.

Azərbaycan Prezidentinin müvafiq tapşırığına əsasən, kompleksin bərpası işlərinə başlanılıb. Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi üçün ilkin konsepsiya layihəsi İtaliyanın "ArtCloud Network International s.c.r.l." şirkəti tərəfindən hazırlanıb. Kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Kompleksdə aparılacaq bərpa və konservasiya işlərinə mədəniyyət üzrə beynəlxalq ekspert Alesandro Bianki rəhbərlik edəcək. O, vətəni İtaliyada, eləcə də Türkiyə, Gürcüstan, İsrail, İraq, Albaniya, Efiopiya və s. ölkələrdə bərpa və konservasiya işləri üzrə fəaliyyət göstərib, bir çox beynəlxalq təşkilatların həyata keçirdiyi layihə və proqramlarda mütəxəssis kimi iştirak edib. Kompleksin ilkin layihələndirilmə işləri üçün tələb olunan vəsaitin qrant qismində Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.

Sonra Prezident və birinci xanım XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını ediblər.

Prezident İlham Əliyevin 2022-ci il 14 mart tarixli Sərəncamı ilə bu il Natəvanın 190 illiyinin qeyd olunduğu nəzərə alınaraq Mədəniyyət Nazirliyi tərəfindən həmin qəbirüstü abidənin bərpa olunması istiqamətində işlərə başlanılıb. Qəbirüstü abidə özünün ilkin görkəmi əsasında heykəltəraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanıb və əvvəlki yerində quraşdırılıb. 1982-ci ildə ucaldılmış və Elcan Şamilovun müəllifi olduğu qəbirüstü abidənin daş yonulması işlərini görmüş Rəfi Zeynalov 40 il sonra da eyni abidənin hazırlanması üçün daş yonub. Bununla bağlı Rəfi Zeynalovun xatirələrini bölüşdüyü qısa film də hazırlanıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəbirüstü abidənin önünə gül dəstələri qoyublar.

# Yaradıcı İqtisadiyyat üzrə III Dünya Konfransı

5-7 oktyabr tarixində İndoneziyanın Bali adasında "İnklüziv yaradıcılıq. Qlobal bərpa" mövzusunda Yaradıcı İqtisadiyyat üzrə III Dünya Konfransı keçirilir. Konfransda yaradıcı sənayelərin iqtisadiyyatda rolunun artırılması, o cümlədən sahəvi inkişaf proseslərinin təmin olunması ilə bağlı müzakirələr aparılır.

Konfransın 6 oktyabr tarixində keçirilən Nazirlər sessiyasında Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev onlayn formada iştirak edib.

Sessiyada çıxış edən Elnur Əliyev ölkəmizdə mədəniyyət və yaradıcı sənayelər sahəsində baş verən son proseslər, nazirliyin bu istiqamətdə yanaşması, dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", eləcə də işğaldan azad edilmiş ərazilərə yaşayış və mədəniyyətin qayıdışından bəhs edib.

Sonda "Bali baxışı. Yaradıcı İqtisadiyyat üçün Yol Xəritəsi" başlıqlı sənəd layihəsi nəzərdən keçirilərək qəbul olunub.

# Bəstəkarlar İttifaqına yeni üzvlərin qəbulu və fəaliyyət planının müzakirəsi keçirilib



Oktyabrın 5-də Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) İdarə Heyətinin iclası keçirilib. ABİ-nin sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin iştirakı ilə keçən iclasda ittifaqın 2022-ci ilin I yarısında keçirilmiş tədbirlərinin hesabatı dinlənilib, ilin sonunadək nəzərdə tutulmuş yeni tədbirlər planı müzakirə edilib.

Müzakirə zamanı görkəmli Azərbaycan bəstəkarlarının yubileylərinə həsr olunmuş tədbirlərin keçirilməsi xüsusi qeyd edilib. Bildirilib ki, ABİ-də Əşrəf Abbasovun və Rauf Hacıyevin 100 illiyinə həsr olunmuş konfrans və konsertlərin keçirilməsi nəzərdə tutulur. Həmçinin ABİ-nin təşkilatçılığı ilə Almaniyada və İsveçrədə dahi bəstəkarımız Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş yubiley tədbirlərinin keçirilməsi ilə bağlı hazırlıq işləri aparılır.

Bəstəkarlar İttifaqının fəaliyyətinin prioritet istiqaməti olaraq gənclərin yaradıcılığına xüsusi diqqət göstərilir. Noyabr ayında Zəfər Gününə həsr olunmuş "Gənc bəstəkarların yeni əsərlərindən ibarət Plenum"un keçirilməsi nəzərdə tutulur.

İdarə Heyətinin iclasında öz yaradıcılıqları ilə fərqlənən beş gənc – bəstəkarlar Elvin Quliyev, Yusif Bayramov və Vəfa Bağırzadə, musiqişünaslar Leyla Quliyeva və Həbibə Məmmədova Azərbaycan Bəstəkarlar İttifaqına üzv qəbul ediliblər.

# İşğaldan azad edilmiş əraziləri yenidən qurmaq bizim milli ideyamızdır

*əvvəli səh. 1-də*

Prezident qeyd edib ki, hazırda biz keçmiş məcburi köçkünləri öz doğma yurdlarına mümkün qədər tez qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik. Lakin genişmiqyaslı bərpa proqramı ilə yanaşı, ən böyük çətinliklərdən biri minalardır: "Müharibə demək olar ki, iki il bundan əvvəl başa çatandan bəri təxminən 250 azərbaycanlı minaların partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb. Ermənilər işğal dövründə 1 milyondan çox mina basdırıblar. Lap bu yaxınlarda biz İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunda basdırılmış 1400-dən çox mina aşkar edərək zərərsizləşdirmişik. Beləliklə, Azərbaycana qarşı təcavüz, Azərbaycana qarşı terror davam edir".

Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra regionda davamlı sülh və sabitliklə bağlı təklif irəli sürüb: "10 min kvadratkilometrdən çox ərazinin Ermənistan tərəfindən dağıdılmasına baxmayaraq, insanlarımızın çəkdiyi zülmlərə baxmayaraq, biz Ermənistana sülh təklif etdik. Sülh müqaviləsi üçün əsas olan beynəlxalq hüququn beş əsas prinsipini, – xüsusən də ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, gələcəkdə ərazi iddialarından çəkinmək, güc tətbiq etməmək və ya güc tətbiq etmək hədəsindən çəkinmək, dövlət sərhədlərinin müəyyən edilməsi və kommunikasiyaların açılması, – irəli sürdük. Bütün bunlar, əslində, beynəlxalq hüququn əsas prinsipləridir və hesab edirəm ki, münasibətlərini normallaşdırmağa çalışan ölkələr arasında sülh sazişləri və ya hər hansı sazişlər buna əsaslanmalıdır".

Prezident qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisi bizim vətəndaşlarımızdır və biz onların öz ərazimizdə həyatını necə təşkil edəcəyimizi heç bir beynəlxalq oyunçu ilə müzakirə etməyəcəyik: "Qarabağ Azərbaycandır! İkinci Qarabağ müharibəsi bunu meydanda sübut etdi.




İşğal dövründə dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan bu qondarma qurumu tanımadı. Ona görə də daxili işlərimizlə bağlı məsələləri heç vaxt beynəlxalq qurumlarla və ya böyüklüyündən və potensialından asılı olmayaraq, heç bir ölkə ilə müzakirə etmirik".

Sülh prosesi ilə bağlı müəyyən nikbinlik olduğunu deyən İlham Əliyev bildirib ki, bu yaxınlarda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin sülh sazişi layihəsinin hazırlanması gündəliyi ilə bağlı ilk görüşü keçirilib: "Ümid edirik ki, bu, çox vaxt aparmayacaq. Eyni zamanda, ümid edirik ki, sərhədlərin delimitasiyası üzrə iki müvafiq komissiya – Azərbaycan və Ermənistan komissiyaları da vaxt itirməyəcək və iki ölkə arasında faktiki mövcud olmayan sərhədin müəyyənləşdirilməsi üzərində fəal işləyəcəklər. 400 kilometrdən çox olan bu sərhədi müəyyənləşdirmək üçün tarixi sənədlərə, tarixi xəritələrə, beynəlxalq təcrübə və metodologiyaya əsaslanaraq fəal şəkildə işləməliyik".

Prezident diqqətə çatdırıb ki, oktyabrın 4-də Ağdamın üç kəndinin – Xıdırlı, Kəngərli və Sarıcalının təməlqoyma mərasimləri olub: "Maksimum iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaqdır. Ağdam şəhərində biz demək olar ki, min yerlik məktəb tikirik. Bu məktəb də ola bilsin bu il, ya da gələn il hazır olacaq. Xəstəxana və bir neçə yaşayış binası tikilir. Bu, sadəcə, Ağdamdır. Eyni işlər Füzulidə, Qubadlıda, Zəngilanda da görülür. İki ay bundan əvvəl qayıtdığımız Laçın şəhərini növbəti ilin sonuna kimi bərpa etməyi planlaşdırırıq. Çünki dediyim kimi, orada qeyri-qanuni məskunlaşma var idi. Heç də bütün binalar sökülməmişdir. Biz artıq bir qrup mütəxəssisi oraya göndərmişik. Beləliklə, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu, bizim milli ideyamızdır. Əvvəllər bizim milli ideya torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi və bütün Azərbaycan xalqı bu ideya ətrafında birləşmişdi, özünü buna hazırlamışdı... İndi artıq işğal damğasından azad olunmuş Azərbaycan yüksəlməkdədir və mən əminəm ki, Azərbaycan ən uğurlu ölkələrdən biri olacaq və söhbət təkcə bizim regiondan getmir".

# "Mədəni və tarixi irsin postkonflikt dövründə bərpası"

## Mədəniyyət naziri Milli Şəhərsalma Forumunda çıxış edib

Xəbər verildiyi kimi, 5-6 oktyabr tarixlərində BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu keçirilib.

44 ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox iştirakçının qatıldığı forum şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən bu sahə üzrə mütəxəssislərin təcrübələrini bölüşməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından nadir və uğurlu platformadır.

Oktyabrın 5-də Ağdamda işə başlayan forum ayın 6-da Bakıda ADA Universitetində mədəni, ekoloji və iqtisadi mövzularda sessiyalarla işini davam etdirib.




"Mədəni və tarixi irsin postkonflikt dövründə bərpası" mövzulu sessiyada çıxış edən mədəniyyət naziri Anar Kərimov deyib ki, 30 il ərzində Ermənistanın işğalı altında qalan ərazilərimizdə Azərbaycanın mədəni irsi dağıdılıb, mənşəyi dəyişdirilib və ya qanunsuz arxeoloji qazıntılar aparılıb. Ərazilərimiz işğaldan azad edildikdən sonra burada xarabalıqlar, vandallıq aktları aşkarlanıb. Nazir bildirib ki, bu kimi hadisələr beynəlxalq konvensiyalara ziddir.

Mədəniyyət Nazirliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə aparılan ilkin monitorinqlər barədə danışan Anar Kərimov diqqətə çatdırıb ki, təhlillər zamanı dövlət reyestrinə salınmış 706 abidədən 403-ü tədqiq olunub. Bundan başqa, 864 mədəniyyət müəssisəsinin monitorinqi aparılıb. Həmçinin 162 yeni mədəniyyət abidəsi aşkar olunub.

Anar Kərimov əlavə edib ki, hazırda nazirliyin əməkdaşları monitorinq apararkən mina təhlükəsi ilə qarşılaşırlar. Bu səbəbdən prioritet tapşırıq ərazilərin minalardan təmizlənməsi və arxeoloji işlərin təhlükəsizliyinin təmin olunmasıdır.

Nazir qeyd edib ki, hazırda Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində üç məscid və iki kilsə bərpa olunur. "Bununla da Azərbaycan mədəni irsə qarşı ayrı-seçkilik etmədiyini bir daha bəyan edir. Hər bir mədəni irs nümunəsi Azərbaycan üçün əhəmiyyətlidir, dəyərlidir. Çünki bu irs yalnız Azərbaycana deyil, bütün bəşəriyyətə məxsusdur", – deyə Anar Kərimov əlavə edib.

# Əhmədxan Bakıxanovun 130 illiyi qeyd olunub

Bu il görkəmli tarzən, pedaqoq, musiqi təşkilatçısı, Əməkdar müəllim, Xalq artisti Əhmədxan Bakıxanovun (1892-1973) anadan olmasının 130 illiyidir.

Oktyabrın 6-da Musiqi Mədəniyyəti Dövlət Muzeyində musiqi xadiminin yubileyinə həsr olunan tədbir keçirildi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova qeyd etdi ki, Azərbaycan musiqi mədəniyyəti, tar ifaçılıq sənəti bu gün də böyük müəllim, görkəmli ifaçı Əhmədxan Bakıxanovun irsindən bəhrələnir.

Muzeyin direktor müavini Təranə Zeynalova sənətkarın həyat və yaradıcılığından söz açdı. Diqqətə çatdırdı ki, Ə.Bakıxanov ilk musiqi təhsilini İranda alıb. Burada ustad tarzənlərdən tar ifaçılığının və muğamatın sirlərinə dərindən yiyələnib. 1920-ci ildən Bakıda musiqi məclislərində və konsertlərdə fəal iştirak edib. Eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olub, yeni tarzənlər nəslinin yetişdirilməsinə öz töhfəsini verib. 1930-cu ildən Üzeyir Hacıbəylinin dəvəti ilə Azərbaycan Dövlət Konservatoriyasında muğamdan dərs deyib. Azərbaycan Radiosu nəzdində ilk xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri də məhz Ə.Bakıxanov olub. 1973-cü ildən həmin ansambl sənətkarın adını daşıyır.

Tarzənin oğlu, görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanov çıxış edərək tədbirin təşkilində əməyi olan hər kəsə və iştirakçılara təşəkkürünü bildirdi.



Qeyd etdi ki, Ə.Bakıxanovun ifaçılıq fəaliyyətinin ən parlaq səhifələrindən birini onun xalq çalğı alətləri ansamblındakı işi təşkil edir: "O, uzun illər ərzində bir sıra musiqi ansambllarının rəhbəri olub. Radio Komitəsinə 1927-ci ildə solist kimi işləməyə dəvət olunub. 1941-ci ildə Radio Komitəsi nəzdində Xalq çalğı alətləri ansamblı Ü.Hacıbəylinin təşəbbüsü ilə Ə.Bakıxanov tərəfindən təşkil olunub. Ansamblın hazırladığı proqramların ilk dinləyicisi də əksər hallarda Üzeyir Hacıbəyli özü olub. Ə.Bakıxanov bu ansambla ömrünün axırına kimi rəhbərlik edib...".

Xalq artistləri – tarzənlər Ramiz Quliyev, Möhlət Müslümov, kamança ifaçısı Fəxrəddin Dadaşov və başqaları çıxış edərək görkəmli sənətkarla bağlı xatirələrini bölüşdülər. Bildirdilər ki, Ə.Bakıxanov tələbələrinə sənətin sirlərini öyrətməklə bərabər, onlara mənən də yaxın bir dost idi.

Tədbirin bədii hissəsində Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblının solisti, Əməkdar artist, tarzən Davud Abdullayev, xanəndə Hüseyn Məlikov, Musiqi Kollecinin tələbələri, Ə.Bakıxanov adına 6 saylı musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında konsert proqramı təqdim edildi.

Sonra muzeyin kolleksiyası əsasında hazırlanan "Əhmədxan Bakıxanov – 130" adlı slayd-şou nümayiş olundu. Görkəmli sənətkarın musiqi tərtibatçısı olduğu "Şur" sənədli televiziya filmi (1967) göstərildi.

**Savalan Fərəcov**

# Bakıda böyük kitab bayramı

## "Hər bir xalqın böyüklüyü onun ədəbiyyatının zənginliyi və kitaba münasibətindən də asılıdır"

əvvəli səh. 1-də

Nazir vurğuladı ki, mədəniyyətimizin böyük hamisi, ümummilli lider Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərliyi dövründə ədəbi irsimizə, kitaba diqqət və qayğı göstərib: "Böyük şair və mütəfəkkirlərimizin adları əbədiləşdirilib, təbliği istiqamətində mühüm addımlar atılıb. 1982-ci ildə ölkəmizdə Vaqif Poeziya Günlərinin keçirilməsi Azərbaycan milli ədəbiyyatının təntənəsi idi. Bu diqqət və qayğı hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Torpaqlarımızın düşməndən azad edilməsindən sonra Şuşada 2021-ci ildə Vaqif Poeziya Günləri bərpa olundu və bu il ikinci dəfə gerçəkləşdi. Bu il Azərbaycan ədəbiyyatının dörd görkəmli nümayəndəsi – Xurşidbanu Natəvanın 190, Əhməd Cavadın 130, Hüseyn Cavidin 140, Ömər Faiq Nemanzadənin isə 150 illiyi dövlət səviyyəsində qeyd edilir. Natəvanın yubileyi münasibətilə "Məclisi-üns" ədəbi məclisi azad Şuşada bərpa edildi".







Sərgi haqqında danışan Anar Kərimov bildirdi ki, "Şuşa İli"nə həsr olunan kitab bayramında 10-dan çox ölkə, 100-dən artıq yerli və xarici nəşriyyat iştirak edir. Beş gün davam edəcək sərgi müddətində müxtəlif formatda ümumilikdə 200-dən çox tədbir təşkil olunacaq: "Xüsusi olaraq qeyd etmək istəyirəm ki, builki sərgimizin fəxri qonağı qardaş Türkiyə Cümhuriyyətidir. Sərgidə Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çamın rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir. Biz əminik ki, Türkiyənin bu sərgidə iştirak etməsi iki ölkə arasında kitab dövriyyəsi, kitab sənayesi və ədəbiyyatla bağlı bütün sahələrdə əməkdaşlığın inkişafına öz töhfəsini verəcək".

Anar Kərimov çıxışının sonunda kitab bayramı münasibətilə bütün kitabsevərləri təbrik edib, sərgi iştirakçılarına uğurlar arzuladı.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam çıxış edərək Prezident Rəcəb Tayyib Ərdoğan və nazir Mehmet Nuri Ersoyun salamlarını tədbir iştirakçılarına çatdırdı. 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra belə tədbirlərin keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayan nazir müavini sərginin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar sərginin bütün xalqımızın, ən əsası isə yazıçıların bayramı olduğunu söylədi.

Çıxışlardan sonra sərginin rəmzi açılışını bildirən lent kəsildi. Tədbir iştirakçıları sərgi məkanı, stendlərlə yaxından tanış oldular.

Oktyabrın 9-dək davam edəcək VIII Bakı Beynəlxalq Kitab Sərgisi "Caspian Event Organisers" (CEO) şirkətinin təşkilati dəstəyi ilə həyata keçirilir.

**Nurəddin**

# Kitabxana işinə gənc kadrlar gəlirlər

## Mədəniyyət naziri BDU və ADMİU-nun məzunları ilə görüşüb



VIII Bakı Beynəlxalq Kitab Sərgisinin maraqlı tədbir və təqdimatlardan ibarət zəngin proqramı var. Oktyabrın 5-də sərgi çərçivəsində mədəniyyət naziri Anar Kərimovun Bakı Dövlət Universiteti (BDU) və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kitabxanaçılıq və informasiya ixtisası üzrə məzunları ilə görüşü keçirildi.

Bakı Ekspo Mərkəzində gerçəkləşən görüşdə çıxış edən Anar Kərimov Mədəniyyət Nazirliyinin kitabxana-informasiya sahəsi üzrə apardığı islahatlardan söz açdı. Dedi ki, hazırda nazirliyin tabeliyində olan mərkəzləşdirilmiş kitabxana sistemlərində işçilərin 20 faizi ixtisaslı kadrlardır: "Bu sahənin inkişafı üçün ən başlıca meyarlardan biri məhz peşəkar mütəxəssislərin cəlb olunmasıdır. Bu istiqamətdə həm şəffaflığı təmin etmək üçün, həm də müvafiq sahə üzrə əmək bazarında rəqabətin formalaşdırılması məqsədilə nazirliyin tabeliyində olan kitabxanalarda işəgötürmə prosesi artıq test və müsahibə mərhələsindən ibarət olmaqla imtahanla həyata keçirilərək".

Nazir bildirdi ki, artıq imtahan prosesini tənzimləyən qaydalar da təsdiq olunub: "Sizlər bu prosesin ilk iştirakçılarısınız. Əminəm ki, qazandığınız nəzəri təcrübə, əldə etdiyiniz bilik və peşə hazırlığınız vasitəsilə ölkədə kitabxana sahəsinin inkişafına öz töhfələrinizi verəcəksiniz. Bəziləriniz karyeranıza regionlarda, bəziləriniz isə Bakı şəhərində başlamaq arzusunda olduğunuzu ifadə etmisiniz".

Anar Kərimov məzunları təbrik edərək onlara gələcək işlərində uğurlar arzuladı.

BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Ələmdar Cabbarlı vurğuladı ki, Azərbaycanda kitabxana sahəsinə diqqət və qayğının ənənələri var: "Ulu öndər Heydər Əliyev hər zaman kitabxanaya, kitabxanaçı əməyinə yüksək qiymət verib. Bu ənənələr Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən layiqincə davam etdirilir. Mədəniyyət naziri Anar Kərimovun məzunlarla bugünkü görüşünü də bu ənənələrin davamı kimi yüksək qiymətləndirirk. Mən ilk dəfə bizim fakültənin məzunlarının nazir səviyyəsində qəbulunun şahidi oluram".

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov qeyd etdi ki, bu il BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin 4 nəfər məzunu elm ocağında işlə təmin olunub.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli diqqətə çatdırdı ki, hər iki universitet üzrə 2021-2022 tədris ilinin 178 nəfər məzunu arasından 20 nəfər işlə təmin olunmaq üçün seçilib. Seçilən gənclərin hər biri ilə fərdi qaydada müsahibə aparılıb.

Sonda görüş iştirakçıları ilə xatirə şəkli çəkdirildi.

# Bakı Ekspo Mərkəzində Milli Kitabxananın təqdimatları

Milli Kitabxana VIII Bakı Beynəlxalq Kitab Sərgisində zəngin stendlə təmsil olunur. Sərginin ilk günü "Şuşa tarixi sənədlərdə (Milli Kitabxananın fondundan)" kitabının, "Biz səni dirçəldəcəyik, əziz Şuşa!" adlı elektron məlumat bazasının təqdimatı keçirilib.

Baş nazirin müavini Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov, Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Serdar Çam, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və digər rəsmilər, yerli və xarici qonaqlar təqdimatda iştirak edirlər.

Milli Kitabxananın direktoru Kərim Tahirov qonaqlara stendin müxtəlif bölmələrindəki kitablar, kitabxananın əməkdaşları tərəfindən hazırlanmış "Biz səni dirçəldəcəyik, əziz Şuşa!" elektron bazası haqqında məlumat verib.




Milli Kitabxana tərəfindən hazırlanmış "Şuşa tarixi mənbələrdə" biblioqrafiya kitabından da söz açan direktor bildirib ki, bu, kitabxananın Şuşaya həsr olunan ikinci biblioqrafik nəşridir.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, biblioqrafiya kitabı Qarabağın, onun tacı olan Şuşa şəhərinin tarixinin öyrənilməsində tədqiqatçılar üçün bələdçi rolunu oynayacaq. O həmçinin diqqətə çatdırıb ki, Ədəbiyyat İnstitutu Mədəniyyət Nazirliyi və Milli Kitabxananın "Qarabağa kitabla gedək!" kampaniyasına qoşularaq 1000 nüsxəyə yaxın kitab hədiyyə edib.

Oktyabrın 6-da sərgidə Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə "Xurşidbanu Natəvan" biblioqrafiya kitabının, eləcə də "Xurşidbanu Natəvan" adlı elektron məlumat bazasının təqdimat mərasimi keçirilib. Milli Kitabxananın direktoru, professor Kərim Tahirov nəşr haqqında məlumat verib.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi biblioqrafiyanın Natəvanın yubileyinə bir töhfə olduğunu qeyd edib.

Tədbirdə iştirak edən Rusiya Dövlət Kitabxanasının prezidenti Viktor Federov bildirib ki, təqdim edilən biblioqrafiya rus tədqiqatçıları üçün də qiymətli nəşrdir.

# Gənclər Kitabxanası sərgiyə geniş çeşiddə kitablar gətirib

Respublika Gənclər Kitabxanası da VIII Bakı Beynəlxalq Kitab Sərgisinə 200-dək adda kitab gətirib. Onların arasında kitabxananın bu il elan etdiyi "Nəşrlərin satınalınması müsabiqəsi" nəticəsində əldə edilən kitablar üstünlük təşkil edir.

Bundan əlavə, kitabxananın stendində Fikrət Əmirovun 100, Əhməd Cavadın 130, Hüseyn Cavidin 140, Ömər Faiq Nemanzadənin 150, Xurşidbanu Natəvanın 190 illik yubileylərinə və "Şuşa İli"nə həsr olunan nəşrlər yer alır.




Milli Məclisin deputatları Qənirə Paşayeva, Əziz Ələkbərli, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, Albaniyanın "Fan Noli" nəşriyyatının direktoru Rexhep Hida və başqaları kitabxananın stendini ziyarət ediblər.

Oktyabrın 7-də Respublika Gənclər Kitabxanasının nəşrə hazırladığı "Sən azadsan!" kitabının təqdimat mərasimi keçiriləcək. Kitabda 20-yə yaxın gənc yazarın Azərbaycanın şanlı Zəfər tarixi – 44 günlük müharibəyə həsr olunmuş əsərləri toplanıb.

# Sərgi çərçivəsində görüşlər

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 5-də VIII Bakı Beynəlxalq Kitab Sərgisinin "fəxri qonaq ölkə"si olan Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Serdar Çamın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı da iştirak edib.




Qonaqları səmimi salamlayan nazir Anar Kərimov Türkiyənin sərgidə geniş tərkibdə, həm də "fəxri qonaq ölkə" kimi iştirakından məmnunluğunu bildirib. Nazir bu kimi tədbirlərin iki ölkənin qardaşlıq bağlarının daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə töhfə verəcəyini vurğulayıb.

TÜRKSOY-un 2023-cü ildə Azərbaycanın Şuşa şəhərini "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan etməsinin xalqımıza böyük qüruru hissi yaşatdığını söyləyən Anar Kərimov Türk dünyasının zənginliyini göstərmək üçün bu kimi birgə layihələrin əhəmiyyətini qeyd edib. Nazirliyin sahəsində həyata keçirdiyi layihələrə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Yunus Əmrə İnstitutunun dəstək göstərməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam Bakı Beynəlxalq Kitab Sərgisində iştirakından böyük məmnunluğunu bildirib, yüksək təşkilatçılığa görə nazirə təşəkkür edib. O, Türkiyənin bu sərgidə "fəxri qonaq ölkə" kimi iştirakının iki ölkə arasında münasibətlərin davamlı inkişafından xəbər verdiyini söyləyib, bu kimi layihələrin beynəlxalq səviyyədə daha geniş şəkildə təqdim edilməsinə ümidvar olduğunu bildirib.

Görüşdə mədəniyyət sahəsində gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Sonda Anar Kərimov 2022-ci ildə Şuşanın 270 illiyi münasibətilə nazirlik tərəfindən təsis olunan xatirə nişanını Serdar Çama təqdim edib.

***



Nazir Anar Kərimov oktyabrın 5-də İranın mədəniyyət və islami irşad nazirinin müavini Yasər Əhmədvənd ilə də görüşüb.

VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində gerçəkləşən görüş zamanı iki ölkə arasında dostluq, əməkdaşlıq münasibətinin bundan sonra da inkişaf edəcəyinə inam ifadə olunub.

İranın kitab sərgisində iştirakını yüksək qiymətləndirən Anar Kərimov belə tədbirlərin yazar və naşirlər arasında körpü rolunu oynadığını vurğulayıb, İranın Azərbaycandakı Səfirliyi və İran Mədəniyyət Mərkəzi vasitəsilə ölkələrimiz arasında mədəni əlaqələrin davamlı inkişaf etdiyini bildirib.

Sərgiyə dəvətə görə təşəkkürünü bildirən Yasər Əhmədvənd qarşılıqlı əməkdaşlıq çərçivəsində Anar Kərimovu 2023-cü ilin may ayında Tehranda keçiriləcək beynəlxalq kitab sərgisinə dəvət edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlərin müzakirəsi aparılıb.

# Bakı Beynəlxalq Kitab Sərgisinə Türkiyədən 40 nəşriyyat qatılıb

Türkiyə VIII Bakı Beynəlxalq Kitab Sərgisinə geniş heyətlə qatılıb. Qardaş ölkəni sərgidə 40 nəşriyyat təmsil edir. Oktyabrın 5-də sərgi məkanında Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin stendinin açılış mərasimi olub.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam bildirib ki, son zamanlar ölkədə kitaba olan maraq artıb. Müxtəlif dillərdə kitablar türk dilinə tərcümə edilir. O, Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkür edib, sərgidə iştirak edən nəşriyyatlara və sərgiyə qatılan yazarlara uğurlar arzulayıb.

Mədəniyyət naziri Anar Kərimov bildirib ki, Türkiyənin bu sərgidə geniş heyətlə iştirak etməsi hamını sevindirir: "İnanıram ki, bu sərgi nəşriyyatlar arasında da işbirliyi yaradacaq. Azərbaycan da bu il İstanbulda təşkil olunacaq kitab sərgisinə fəxri qonaq qismində dəvət olunub. Biz bu dəvəti məmnuniyyətlə qəbul etmişik".

Anar Kərimov "İrəvan necə varsa – keçmişdən bu günə" kitabını Türkiyənin görkəmli tarixçi alimi, professor İlber Ortaylıya bağışlayıb.

Baş nazirin müavini Əli Əhmədov deyib: "Bu cür tədbirlər qardaşlığımızı daha da möhkəmləndirir və illər keçdikcə bu birlik daha da möhkəmlənəcək. Türkiyənin tədbirdə belə geniş şəkildə iştirak etməsi bizim üçün qürurdur".

Sonra klassik türk musiqisindən nümunələr səsləndirilib.

# Rusiya stendində ədəbiyyat müzakirələri

Oktyabrın 5-də VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Rusiya stendinin də açılışı olub.




Tədbirdə Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov, Rusiya Federasiyasının Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyinin Kitab sənayesi departamentinin rəhbəri Vladimir Qriqoryev, "Rossotrudniçestvo" agentliyinin nümayəndəsi İrek Zinnurov və yazıçı Yevgeniya Vodolazkina çıxış ediblər.

Bildirilib ki, Azərbaycan unikal yerdir. Bu torpaqda tarix boyu müxtəlif xalqlar bir araya gəliblər. Azərbaycan indi də xalqları bir yerə toplayır, bir-birlərini başa düşməyə çağırır, onlara multikultural dəyərlər aşılayır.

Rusiya Federasiyası stendində müxtəlif tədbirlər təşkil olunur. Yazıçı Afanasi Mamedovla şair Alina Talıbova arasında Bakı haqqında dialoq keçirilib. Oktyabrın 6-da VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində yazıçı Nina Daşevskaya və "Literaturnaya qazeta"nın redaktoru Maksim Zamşevin iştirakı ilə "ədəbiyyatda musiqi" mövzusunda müzakirə keçirilib.

# Azərbaycan xalqlar arasında sülh və əməkdaşlığa öz töhfəsini verir

Xəbər verdiyimiz kimi, ADA Universiteti, universitetin İnkişaf və Diplomatiya İnstitutu və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə təşkilatçılığı ilə sentyabrın 24-də təlim proqramı başlayıb. Təlimə Afrikanın 14 ölkəsinin UNESCO üzrə milli komissiyalarının baş katibləri və nümayəndələri cəlb olunub.



Oktyabrın 4-də Beynəlxalq Muğam Mərkəzində mədəniyyət naziri Anar Kərimovun təlim proqramı iştirakçıları ilə görüşü keçirilib.

Qonaqları salamlayan Anar Kərimov UNESCO-nun ali məqsədi olan irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsi prinsiplərinə Azərbaycanın da öz töhfəsini verdiyini bildirib.

Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" qlobal platforması haqqında danışan Anar Kərimov vurğulayıb ki, ölkəmizin belə bir hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsas səbəbi ərazisində tarixən fərqli dini mənsubiyyəti olan milli-etnik qrupların, icmaların və zəngin mədəni müxtəlifliyin olmasıdır.

Nazir həmçinin Mədəniyyət Nazirliyi tərəfindən ötən il irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4culture) beynəlxalq platforması haqqında da məlumat verib, layihənin əhəmiyyətini diqqətə çatdırıb.

Sonra ADA Universitetində ixtisasartırma proqramlarının rəhbəri Nərgiz İsmayılova təlim kursu haqqında danışıb. Qeyd edib ki, proqramın əsas məqsədi Azərbaycanın Afrika ölkələri ilə UNESCO çərçivəsində mövcud olan əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, sözügedən regionda ölkəmiz barədə məlumatlılığın artırılması, eləcə də işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işləri haqqında yeniliklərin çatdırılmasıdır.

Nərgiz İsmayılova təlim proqramının Azərbaycan və Afrika ölkələrinin UNESCO üzrə milli komissiyaları arasında əməkdaşlığı və ikitərəfli əlaqələri gücləndirəcəyinə ümidvar olduğunu bildirərək, təlimə göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə təşəkkür edib.

Sonda qonaqlar Beynəlxalq Muğam Mərkəzi ilə tanış olublar.

Qeyd edək ki, oktyabrın 8-də başa çatacaq proqramın iştirakçıları Azərbaycanın UNESCO-nun Dünya İrsi Siyahısına daxil olan məkanlarını da ziyarət edəcəklər.

# Hərbi attaşelər Edilli kəndindəki kütləvi məzarlığa baş çəkiblər

Xəbər verildiyi kimi, Xocavənd rayonunun işğaldan azad olunmuş Edilli kəndində ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlıların basdırıldığı növbəti kütləvi məzarlıq aşkar edilib.



Oktyabrın 6-da Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun hərbi attaşeləri kütləvi məzarlığa baş çəkiblər. Müvafiq dövlət qurumlarının əməkdaşları onlara kənd ərazisində aparılmış qazıntı işləri, tapılmış insan qalıqları ilə bağlı ətraflı məlumat veriblər.

Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov bildirib ki, kütləvi məzarlıqda ayaqları bağlanmış 12 nəfərin sümükləri aşkarlanıb: "Bizdə olan məlumata görə, Edillidə onlarla vətəndaşımız qətlə yetirilərək bu ərazilərdə basdırılıb. İndiyədək 25 şəxsə aid qalıqlar tapılıb. Axtarış işləri davam etdirilir".

İlkin qənaətə görə, kütləvi məzarlıqda əsirlikdə öldürülən azərbaycanlı hərbçilər basdırılıb: "Hamısının ayağında "press ipi" var. Onların bəzilərində dəlik də var. Bu hal da laboratoriyada araşdırılacaq. Baş Prokurorluq hər bir qalıq barədə rəy verəcək. Ekspertiza zamanı qoyulan suallara aydınlıq gətiriləcək".

# Heç kim unudulmur, heç nə yaddan çıxmır...



Sumqayıt RMİ Sumqayıt şəhər Nizami Gəncəvi adına Kitabxana-klubun əməkdaşları Vətən müharibəsi şəhidi Eldar Abdullayevin ailəsini ziyarət ediblər.

***

Ağcabədi şəhərindəki Qəhrəmanlar parkında Vətən müharibəsi şəhidi Anar Cəfərovun anım mərasimi keçirilib. Mərasimdə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Ağcabədi RMİ-nin rəisi Qalib Həsənov da iştirak ediblər.

***



Yevlax rayonunun Kövər kəndində Vətən müharibəsi şəhidlərinin xatirəsinə abidə inşa olunub. Abidənin açılış mərasimində şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev çıxış edərək şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən daima uca tutulduğunu bildirib. Tədbirdə Bərdə RMİ-nin tabeliyindəki Yevlax şəhər Mədəniyyət Mərkəzinin əməkdaşları və Kövər kənd tam orta məktəbinin şagirdləri şəhidlərin xatirəsinə həsr olunmuş kompozisiya nümayiş etdirib, şeirlər səsləndiriblər.

# "İrəvan necə varsa: keçmişdən bu günə"

## Qədim yurd yerimizin tarixi-mədəni irsi haqqında kitab

*əvvəli səh. 1-də*

Nazir diqqətə çatdırdı ki, növbəti mərhələdə bu kitabın xarici dillərə tərcümə edilməsi də planlaşdırılır. Beynəlxalq ictimaiyyət bilməlidir ki, indiki Ermənistan ərazisi olan İrəvan tarixi Azərbaycan torpağıdır. Onun da əyani sübutları məhz İrəvanda olan tarixi irsimizdir.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli bildirdi ki, Azərbaycan tarixşünaslığında İrəvan məsələsi daha çox Ermənistan mövzusunun tərkib hissəsi kimi öyrənilib. Kitabın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, burada İrəvan qalası haqqındakı rəvayətlərdən, İrəvan şəhərinin salınmasından başlayaraq günümüzə qədər dövrü, onun ətrafında olan məsələlər zəngin arxiv sənədləri, ilkin mənbələr əsasında ictimaiyyətə təqdim edilir: "İrəvan idarə edənlərin hamısı azərbaycanlılar olub. Bu və ya digər faktlar bir daha onu göstərir ki, İrəvan birmənalı şəkildə Azərbaycan şəhəri olub. Kitabda tədqiq edilən bütün problemlər Qərbi Azərbaycan tarixi və həmin bölgə üzrə həyatın



bütün sahələrinə dair materiallar kontekstində nəzərdən keçirilib. Bu da kitabın əhəmiyyətini daha da artıraraq, onu bu sahə üzrə unikal mənbəyə çevirib".

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix üzrə elmlər doktoru, professor Kərim Şükürov bildirdi ki, kitabda ilk dəfə olaraq Azərbaycanın tarixi İrəvan şəhəri kompleks şəkildə tədqiq edilib: "Kitaba baxanda onun üzərindəki rəng diqqəti cəlb edir. Bu rəng təsadüfi seçilməyib, İrəvan xanlığının bayrağından gələn bir rəngdir. Həmin rəngin fonunda Azərbaycan mədəni irsinin bir nümunəsi olan Göy məscid verilib. Bu, İrəvanın müsəlman şəhəri olmasının bir göstəricisidir".

Daha sonra tarixçi Səbuhi Hüseynov kitab haqqında məlumat verdi. Dedi ki, kitabın birinci fəsli İrəvan şəhərinin coğrafiyası və tarixinin əsas dövrlərindən bəhs edir. Növbəti fəsildə ermənilərin və Ermənistan dövlətinin İrəvanın azərbaycanlı əhalisinə qarşı etnik təmizləmə siyasəti, üçüncü fəsildə İrəvan şəhəri və ümumən Qərbi Azərbaycanın (indiki Ermənistan ərazisi) toponimiyası və epiqrafik abidələri araşdırılıb.

Dördüncü fəsildə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi Azərbaycan dilinin İrəvan dialekti, orada Azərbaycan məktəbləri və müəllimləri, folklor, ədəbi mühit, mətbuat, teatr, memarlıq və s. məsələlər öyrənilib. Beşinci fəsil İrəvan tarixinin erməni saxtalaşdırıcıları haqqındadır. İrəvan şəhərində Azərbaycan mədəni və tarixi irsinin sonuncu yadigarı – Təpəbaşı məhəlləsinin tarixi, bu günü və mühafizəsi məsələləri isə nəşrin altıncı fəslində araşdırılıb.

Kitab strukturu, irəli sürülən problemlərin əhatə dairəsi və həllinə görə Azərbaycan irəvanşünaslığına böyük töhfə olmaqla onun yeni istiqamətlərini də müəyyən etməyə imkan verir.

Qeyd edək ki, kitab Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuş Nəşr planının tərtibi və nəşriyyat məhsullarının satınalınması üzrə komissiyanın qərarına əsasən, "Aspoliqraf" MMC-nin mətbəəsində çap olunub. Kitabın elmi məsləhətçisi mədəniyyət naziri Anar Kərimov, layihənin rəhbəri və elmi redaktoru AMEA Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürovdur.

**Nurəddin**

# Qaranlığa işıq saçanlar...



5 oktyabr – Beynəlxalq Müəllimlər Günü 1966-cı ildə UNESCO-nun qərarı ilə təsis edilib. Əlamətdar gün Azərbaycanda da geniş şəkildə qeyd olunur. Təhsil-maarif sahəsində çalışanların peşə bayramı münasibətilə yerlərdəki mədəniyyət müəssisələrində də tədbirlər keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Ağdaş rayon Heydər Əliyev Mərkəzində "Müəllim ömrü" adlı tədbir keçirilib. Tədbirdə regional idarənin əhatə etdiyi Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarında fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəbinin müəllimləri, rayon İcra Hakimiyyəti aparatının işçiləri, orta məktəblərin müəllimləri və mədəniyyət işçiləri iştirak ediblər.

***

Ağstafa RMİ Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Beynəlxalq Müəllimlər Günü münasibətilə 7 saylı körpələr evi-uşaq bağçasını ziyarət ediblər.

***



Sabirabad RMİ-nin tabeliyindəki uşaq musiqi məktəblərində çalışan müəllimlərin bir qismi ilə Sabirabad rayon Heydər Əliyev Mərkəzində görüş keçirilib. Ötən ildən etibarən ənənə halını alan görüşdə idarə rəisi Fərid Qurbanzadə çıxış edərək Beynəlxalq Müəllimlər Günü münasibətilə müəllimləri təbrik edib, işlərində onlara uğurlar arzulayıb. Sonra müəllimlər regional idarənin fəxri fərmanları ilə təltif olunub.

***



Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzi və MKS-nin 16 nömrəli kitabxana filialı "Zəfər tariximizi yazan tarix müəllimi" mövzusunda Vətən müharibəsinin şəhid müəllimi Rəşad Məmmədovun ailəsi ilə görüş keçirib.

Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi isə "Mənim sevimli müəllimim" adlı tədbir təşkil edib. Tədbirdə şagirdlər söylədikləri şeirlərlə müəllimlərini təbrik ediblər.

# "Muzeyi peşəkardan öyrənək" layihəsi Biləsuvarda

Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Muzeyi peşəkardan öyrənək" layihəsi davam edir. Layihə üzrə növbəti təlim-seminar Biləsuvar RMİ Biləsuvar Heydər Əliyev Mərkəzində keçirilib.



Tədbirdə regional idarənin nəzdində fəaliyyət göstərən Biləsuvar, Salyan, Neftçala, Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyləri, rəsm qalereyaları və Heydər Əliyev mərkəzlərinin direktorları, baş fond mühafizləri və məsul işçiləri iştirak ediblər.

Azərbaycan Milli İncəsənət Muzeyinin elmi işlər üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi Xədicə Əsədova tərəfindən iştirakçılara muzey fondlarında qorunan eksponatların sənədləşmə işi, onların mühafizəsi üçün təlimata uyğun şəraitin təşkili, elmi inventarizasiya haqqında məlumat verilib. Təlimdə həmçinin muzeyə azyaşlı uşaqların və gənclərin cəlb edilməsi məqsədilə layihələrin hazırlanması, muzeylərin sosial şəbəkələrdə təbliği üçün maraqlı məlumatların davamlı olaraq yenilənməsi və s. məsələlərlə bağlı tövsiyələr verilib, müzakirələr aparılıb.

Layihənin ilin sonunadək digər regionlar üzrə muzey müəssisələrinin əməkdaşları üçün təşkili də nəzərdə tutulur.

# Musiqi məktəbi müəllimlərinin ifasında "Arşın mal alan"

Bərdə RMİ Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik Musiqi məktəbinin müəllimləri tərəfindən dahi bəstəkarın "Arşın mal alan" operettasının tamaşası nümayiş olunub.

Mingəçevir Dövlət Dram Teatrının səhnəsində nümayiş olunan tamaşa maraqla qarşılanıb.

Tamaşaya Mingəçevir teatrının baş rejissoru Vüsal Mehrəliyev quruluş verib. Rejissor assistenti İbrahim Türksoy, musiqi rəhbəri məktəbin müəllimi İradə Xəlilova, layihə rəhbəri isə Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümovadır.

Tamaşadan sonra idarə rəisi çıxış edərək bu kimi layihələrin davamlı olacağından, Qarabağın zəngin mədəni irsinin təbliği və tanıdılması istiqamətində görülən işlərdən söz açıb.

# Bölgələrdən qısa xəbərlər



Masallı şəhərində yerləşən XIX əsrə aid hamam ərazisində "Abidələrimizi qoruyaq" devizi altında iməcilik keçirilib. Aksiyada Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli və mərkəzin kollektivi, Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov, həmçinin rayondakı mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər.

Masallı rayon Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində "Bölgə eksperimental teatr" truppasının "Həyat tablosu" tamaşası nümayiş etdirilib. Nümayişdən sonra Mədəniyyət Mərkəzi solistlərinin ifasında vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.

***

Ağdaş RMİ Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanasında ümummilli lider Heydər Əliyevin 3 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar "Tarix yaradan insan" başlıqlı tədbir keçirilib. Tədbirdə ulu öndərin Azərbaycan dövlətçiliyinin inkişafında müstəsna xidmətlərindən bəhs olunub.

***

Kürdəmir RMİ İmişli rayon Mərkəzi Kitabxanasında yazıçı-hüquqşünas, detektiv hekayə və romanlar müəllifi Əlisəfa Azayevlə görüş keçirilib. "Məni eldən soruşun" adlı tədbirdə rayon ziyalıları, yazarlar, fəal oxucular, məktəblilər, mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər.

***

Gəncə RMİ Gəncə şəhər Mədəniyyət Mərkəzində "Bu günün və gələcəyin şairi Nizami Gəncəvi..." adlı tədbir keçirilib. Tədbirdə mərkəzin kurs tələbələri Nizami Gəncəvinin şeirlərindən parçalar söyləyib, dahi şairin qəzəllərinə yazılmış mahnıları səsləndiriblər. Sonda Nizaminin əsərlərinə çəkilmiş rəsmlərdən ibarət sərgi nümayiş etdirilib.

***

Şəki RMİ Oğuz rayon Mərkəzi Kitabxanasının əməkdaşları şəhər H.Babayev adına 1 saylı tam orta məktəbin 9-cu sinfində "Gəncə terroru" mövzusunda informasiya saatı keçiriblər.

***



Ağstafa RMİ Ağstafa şəhər H.Arif adına Uşaq musiqi məktəbində "Yol hərəkəti qaydalarına riayət edək" başlıqlı tədbir keçirilib. DYP-nin əməkdaşı Elvin Aydınov şagirdlərə yol hərəkəti qaydaları haqqında ətraflı məlumat verib. Məktəbin direktoru Arif Əliyev yol hərəkəti qaydalarının pozulması səbəbindən baş verə biləcək bədbəxt hadisənin önlənməsi üçün belə maarifləndirici tədbirlərin əhəmiyyətini vurğulayıb.

***

Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Zəfərin ilk müjdəçisi – Cəbrayıl" adlı tədbir keçirilib. Tədbirdə "Ruhumuzun qələbəsi naminə" adlı sərgi nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# "Qonağımız var" layihəsində Rasim Balayevlə görüş





Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında "Qonağımız var" layihəsinin növbəti qonağı Xalq artisti, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, görkəmli aktyor Rasim Balayev olub.

Tədbirdə Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Xalq rəssamı Əşrəf Heybətov, rayon ictimaiyyəti və sənətsevərlər iştirak ediblər.

Baş idarədən bildirilib ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Aparıcı Günay Firudinqızı sənətkarın həyat və yaradıcılığı haqqında danışıb. Sonra Rasim Balayevin çəkildiyi "Nəsimi", "Babək", "Dədə Qorqud", "Cavid ömrü" və başqa filmlərdən fraqmentlər nümayiş olunub.

Rasim Balayev sənət yolundan, milli kinematoqrafın hazırkı vəziyyətindən söz açıb, kinoda yaratdığı obrazlar, sevdiyi rollar haqqında danışıb və iştirakçıları maraqlandıran suallara cavab verib.

Xəzər rayon icra başçısı Elşən Salahov, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev aktyorun Azərbaycan kino sənətinə töhfələrindən bəhs ediblər. Qeyd olunub ki, onun çəkildiyi filmlər Azərbaycan kinosunun parlaq səhifələrini təşkil edir.

# Payızın sirk sürprizləri

## Bakı Dövlət Sirki oktyabrın 14-də qapılarını tamaşaçılara açacaq



Bakılı sirksevərlər, xüsusən də azyaşlılar payız fəslinin gəlməsi ilə rəngarəng və dolğun proqramlı sirk mövsümünün açılışını səbirsizliklə gözləyirlər. Bunu nəzərə alan Bakı Dövlət Sirkinin əməkdaşları da seyrçilərini təəccübləndirmək üçün yeniliklər etməyə, dünyaca məşhur sirk proqramlarının qastrol siyahısına paytaxtımızı da daxil etməyə çalışırlar.

Bu dəfə də Bakı sirki yeni mövsümdə "Beynəlxalq sirk: festival qalibləri" adlı proqramı təqdim edəcək.

Bununla bağlı oktyabrın 5-də media mənsubları ilə görüş keçirən Bakı Dövlət Sirkinin direktor əvəzi Nahid Ağayev və sirk ustası, proqramlar üzrə təşkilatçı, Dünya Sirk Sənəti Festivalının mükafatçısı Allahverdi İsrafilov qarşıdakı yaradıcı təşəbbüslər haqqında da söz açdılar.

Allahverdi İsrafilov qastrol proqramı barədə məlumat verdi. Bildirdi ki, proqram 14 oktyabr – 27 noyabr tarixlərini əhatə edəcək. Oktyabrın 12-də isə şəhid və qazi ailələri üçün xüsusi nümayiş nəzərdə tutulub.

Görüşdə milli sirk mütəxəssisləri, sirk sənətinin növləri və ötən müddət ərzində təşkil olunan sirk truppasından da söhbət açıldı. Nahid Ağayev sirkdə uzun illərdən sonra zəruri təmir-bərpa işlərinin görüldüyünü, heyvanların saxlama yerlərindən tamaşaçı salonu və manejə qədər hissələrin müasir tələblər səviyyəsinə gətirildiyini bildirdi.

Əməkdaşlıq layihələrinin milli truppanın püxtələşməsi və inkişafına xidmət edəcəyini bildirən N.Ağayev beynəlxalq təcrübəli mütəxəssisləri dəvət etməklə sirk məktəbini formalaşdırmağa can atdıqlarını dedi: "Əslində, Azərbaycanda sirk artistləri yetişdirən məktəb, ixtisas sahəsi yoxdur. Burada, sadəcə, bu işə sevgisi və fiziki imkanları olan insanlar ciddi məşğul olaraq özlərini tapmağa çalışırlar. Biz də bunun üçün mühit formalaşdırmağa, şərait yaratmağa çalışırıq. Onları seçib zamanında yetişdirmək, yeniyetmə və gəncləri sirk sənətinin növləri üzrə püxtələşdirmək üçün də vaxta ehtiyac var. Bunu nəzərə alaraq bu istiqamətdə danışıqlar aparırıq. Müxtəlif məşhur sirk proqramlarının səfəri də gənc sirk əməkdaşları üçün ustad dərsi rolunu oynayacaq. Bu, təcrübə mübadiləsinə də zəmin yaradacaq və artistlərimiz yetişdikcə birgə proqramların təşkilinə nail olacağıq".

Sirk rəhbəri milli truppada bu sənətin müxtəlif növləri üzrə gənclərin, pəhləvanlar, jonqlyorlar, illüzionistlər, akrobat və rəqs nömrələrini göstərən artistlərin olduğunu dedi.

**Həmidə**

# Memarlıq abidəsi olan binanın təmir layihəsi Dövlət Xidmətinə təqdim edilib

Xəbər verildiyi kimi, paytaxtın Səbail rayonunda, Neftçilər prospekti 51 ünvanındakı tarix-memarlıq abidəsi olan binada qanunvericiliyin tələbləri gözlənilmədən təmir işləri aparılır. Təmir işləri həmin binada yerləşən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilir.

Bununla bağlı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən "Tarix-mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, sözügedən quruma xəbərdarlıq edilmişdi.

Bundan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən tarixi tikilidə aparılacaq təmir-bərpa işlərinin layihəsi Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə razılaşdırılması üçün təqdim olunub. Qanunvericiliyin tələblərinə uyğun şəkildə həmin layihəyə mütəxəssislər tərəfindən baxılaraq rəy veriləcək.

# Bakıdakı Rus Evində Yeseninin yaradıcılığına həsr olunmuş tədbir

Bakıdakı Rus Evində (Rusiya İnformasiya və Mədəniyyət Mərkəzi) məşhur rus şairi Sergey Yeseninə (1895-1925) həsr olunmuş musiqili-bədii gecə təşkil olunub. Tədbirdə şairin yaradıcılığının müxtəlif nəsillərdən olan pərəstişkarları iştirak ediblər.



Bədii rəhbəri Larisa Tarusova olan "Günay" uşaq teatrının üzvləri Yeseninin təbiətə həsr olunmuş şeirlərindən ibarət kompozisiya təqdim ediblər.

Azərbaycan Mədəniyyət Fondu sədrinin birinci müavini, Əməkdar mədəniyyət işçisi Rafiq Kəşanlı da şairin şeirlərini söyləyib. Xalq artisti, kinorejissor Oqtay Mirqasımov, rusiyalı şair, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Eldar Əhədov və gənc aktrisa Lalə Həsənova şairin həyat və yaradıcılığından söhbət açıblar.

Tədbirdə Yesenin muzeyinin (AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin tərkibində S.Yesenin adına Azərbaycan-Rusiya ədəbi əlaqələr mərkəzi) direktoru Natəvan Mustafayeva və Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının sədri Lyubov Yakunina da çıxış ediblər.

# Dramaturqun səhnə arzuları

Ədəbiyyat, dramaturgiya və teatr sənəti ilə bağlı müzakirələrdə əsas problem kimi müasir pyeslərin üzərində dayanılır. Təbii ki, ədəbi nümunələrin mövzu və ideyası, işlənmə texnikası, səhnənin tələblərinə uyğunluğu da aktuallıq kəsb edir.

Dramaturq və ssenarist kimi daha çox vətəndən kənarda tanınan İsmayıl İman hesab edir ki, bu gün yazarlarımız dramaturgiyaya, teatrlarla əməkdaşlığa maraq göstərmirlər. Amma buna rəğmən pyeslər yazır.

*– İsmayıl müəllim, bu qeyri-populyar sahəyə sizi hansı maraq gətirdi?*

– Əvvəl maraq göstərirdim. Daha doğrusu, məni narahat edən mövzulara bu formada münasibət bildirmək istəyirdim. Sonradan bu maraq daha ciddi hal aldı və fəaliyyət istiqamətinə çevrildi. Dramaturgiya artıq sevib-seçdiyim yaradıcılıq yoludur.

*– Bəlkə pyesləriniz və onların səhnəyə qoyulduğu teatrlara nəzər salaq?*

– Yaxşı sualdır. Maraqlı, həm də kədərli. Çünki mənim ölkəmizdə teatrlar tərəfindən səhnəyə qoyulan əsərlərim azdır. Düzdür, eksperiment olaraq qoyulan, birdəfəlik tamaşalar çoxdur. Amma yalnız bir əsərim daimi repertuara düşmək imkanı qazanıb. "Balaca, yaramaz məxluq" pyesim Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluşunda Dövlət Gənc Tamaşaçılar Teatrında hazırlandı və səhv etmirəmsə, 2-3 dəfə oynanıldı. Vəssalam.

*– Səbəb nədir?*

– Çünki bizim teatrlarımız əsasən konservativdir. Ola bilər, bu kimlərinsə xoşuna gəlməsin. Amma bütün hallarda fakt faktdır. Teatrımız yeniliyə, fərqli forma və üslublara gözlərini də, qulaqlarını da qapayıb...

*– Səhv etmirəmsə, son olaraq pyesinizin səsi Qazaxıstandan gəldi.*

– Bəli, bu günlərdə Qazaxıstana getmişdim. Almatıda "Şam" teatrında "Astara bağları" pyesim əsasında "№37" adlı tamaşa hazırlandı. Premyera maraqla qarşılandı. İndi sizinlə o an keçirdiyim hissləri bölüşüm: xoşbəxtəm, başqa ölkədə, başqa insanlar qarşısında mənim mətnim səslənir, özü də qazax dilində. Eyni zamanda həm də özümü çox bədbəxt hiss elədim. Çünki istərdim ki, bu mətn öz vətənimdə səslənsin. Hərçənd o əsəri 5-6 il əvvəl yazıb bir neçə yerə təqdim etmişdim. Amma, təəssüf ki, kimlərsə görmədi, seçmədi, səhnəyə çıxarmadı.

*– Bildiyim qədərilə əsasən rus dilində yazırsınız. Əsərlərinizi kitab halında çap etdirməmisiniz...*

– Ümumiyyətlə, materialları toplamışam və kitab halına salacam. 15-ə yaxın pyesim var. Böyük pyesləri, uzun fikirləri və mətnləri heç də hamı sevmir, qəbul etmir. Bu gün tamaşaçıya səhnədən uzun mətnlər demək olmur. Üstəlik onun səhnə həlli də mürəkkəbləşir.

*– Çağdaş dramaturgiyamız xüsusən son iki ildə daha çox tənqid obyektinə çevrilib. O cümlədən 44 günlük müharibənin, qazandığımız Zəfərin səhnədə təcəssümü ilə bağlı...*

– Gəlin, bir az geriyə qayıdaq. Son 30 il ərzində deməzdim ki, ədəbi-bədii nümunələr yaranmadı. Yaşadığımız dərdin içindən çıxış edərək nə isə yazıb-yaratmaq üçün kifayət qədər uzun zaman idi. Amma olmadı. Demirəm ki, yazılmadı. Sadəcə, arzu olunan səviyyəyə çatmadı. İndi isə son iki il ərzində biz hələ də o anın içindəyik. Son hadisələr də bunu hasil etdi. Məncə, bir az vaxt da keçməlidir. Ümumiyyətlə, bu, sifarişlə alınan bir mövzu deyil.

*– Siz də bir çox həmkarlarınız kimi danışırsınız. Deyirsiniz, vaxt keçməlidir. Səhnə, sənət vasitəsilə milli, tarixi, mədəni təbliğatımızı yubadan vaxt?...*

– Yaxşı, onda statik düşünmək və yazmaq, mövzu xatirinə onu konveyerə çevirmək nə qədər doğrudur?

*– Qarabağ mövzusunda əsəriniz varmı?*



– 2020-ci ildə Qarabağ mövzusunda pyes yazmağa başladım. Birinci Qarabağ müharibəsi və Aprel döyüşlərini əhatə edirdi. Əslində, ideya beynimdə çoxdan dolaşırdı. Məqam gəldi və onu yazıya çevirmək ehtiyacım yarandı. Təsəvvür edin, pyesin son redaktə tarixi 2020-ci ilin 26 sentyabrı oldu. Sonra baş verənləri yaxşı bilirsiniz. Mövzu ədəbi gündəm mənasında aktuallığını itirdi və mən onu bir kənara qoydum. Beləcə, başqa reallıqda yazılan əsər ortaya gələnə qədər Qarabağ, onun taleyi ilə bağlı tam fərqli bir mənzərə hasil oldu. Əslində, o pyesin mövzusu maraqlı idi və yəqin ki, hansısa bir keçidlə ona yenidən qayıdacağam... Dünyamız, proseslər tez-tez dəyişir. Məsələn, pandemiya ilə bağlı bütün mətnlər artıq gülməli görünür. Yaradıcılıq sərbəstlik tələb edir və prosesin içində yazılan əsərlə təəssürat əsasında yazılanın, təbii ki, fərqi olur. Bir müddət əvvəl Aprel döyüşləri barədə ssenari yazmışdım. Bədii film çəkiləcəkdi. İlkin proses gedirdi. Təəssüf ki, pandemiya düşdü, ardınca müharibə və ortaya yeni mövzular, yeni reallıqlar çıxdı və o iş də yarımçıq qaldı. Amma bu mövzuda sənədli pyes yazmaq istəyirəm. Hələ ki axtarışdayam.

*– Əslində, müharibə mövzusunda sənədli pyes üçün yetəri qədər mövzu var.*

– Bəli, sözsüz ki, var. Qalır onu ədəbi materiala çevirmək, səhnə texnikası və tələblərinə uyğun pyes halına salmaq.

*– Bugünkü Azərbaycan dramaturgiyasından söhbət açarkən onu dünya ədəbiyyatı kontekstindən təcrid olunmuş şəkildə təsəvvürə gətirmək düzgün deyil.*

– Məncə, ümumilikdə proses getmir deyə birmənalı olaraq paralellik apara bilmirəm.

*– Bu barədə niyə belə pessimistsiniz?*

– Pessimist olsaydım, ümumiyyətlə, bu işlə məşğul olmazdım. Sadəcə, özümə tez-tez bu sualı verirəm: niyə bu işlə məşğulam? Nəticəyə baxanda, əslində, cavabım da ağır olur. Başqa ölkələrdə əsərlərim səhnəyə qoyulur, dramaturq kimi qəbul olunuram və bunun sayəsində yazdıqlarımın lazım olduğunu bilirəm. Öz teatr mühitimizin ümidinə qalsaydım, çoxdan yazı-pozunu buraxıb getmişdim.

*– Daha çox hansı mövzularda yazırsınız? Bəlkə seçdiyiniz mövzu və yanaşma cəlbedici gəlmir?*

– Ola bilər (gülür). Mənim üçün konkret mövzu və ya fərd yoxdur. Daha çox sosial mövzularda işləyirəm. Cəmiyyətdəki parçalanma, bərabərsizlik, insanların mənəvi aşınması, qısacası, həyatdan qaçış mövzuları. Sonuncu məndə daha tez-tez olur. Müşahidə edirəm, daxili emosiya süzgəcimdən keçirirəm və ilk təəssüratla da yazıram. Bu daha təbii alınır. Mən ümumi axına qoşulmağı qəbul etmirəm. Düzdür, müəllif olaraq pyesimin yaradıcılıq taleyini də düşünürəm. Amma mövzu maraqlı olmasa, alınmaz. Çalışıram ümumbəşəri mövzulara toxunum, həm də ölkəmiz, insanlarımız haqqında təsəvvür yaradım...

*– Düşünürsünüz ki, bizim həqiqətlərimiz, elə götürək Qarabağ mövzusunu – bütün tamaşaçılar üçün eyni dərəcədə maraqlı və vacibdir?*

– Universal, yəni bəşəri dəyərlər fonunda versək, niyə də olmasın? Müharibə, işğal, insanların taleyi, cəmiyyətin ona münasibəti təxminən eynidir.

*– Olduğunuz ölkələrdə tamaşaçı marağı necədir?*

– Təkcə Rusiya yox, digər ölkələrdə də tamaşaçı nəsli yenidir, tələbkardır, zövqlüdür, cəsarətlidir.

*– Bəlkə aktual mövzular seçirlər, ya da əksinə, klassikadan qopa bilmirlər?*

– Əslində, bütün rejissorlar üçün bir fikir hakimdir: ölmüş dramaturqla işləmək daha rahatdır. Çünki nə etiraz etmir, nə də müzakirə. Sən rejissor, teatr olaraq heç bir fikir ayrılığı yaşamırsan.

*– Bəlkə dramaturqların təqdimat meydanı yoxdur?*

– Ona görə də yazan yoxdur. Lap gəncdir, yazdı, neyləyəcək onu? Əsəri alınmırsa, maddiyyatı qoyaq bir yana, haradasa səhnəyə qoyulmursa, müzakirə edilmirsə, niyə yazsın? Özümə görə demirəm. Mən rusca yazıram və bilirəm ki, haradasa özünə yol tapacaq, sərhədləri keçəcək. Demirəm ki, onlar mütləq repertuara çıxacaq. Amma hər halda, oxunur, müzakirə edilir, qısacası, özünə yol tapmağa çalışır... Başqaları əsərini nə etsin, hara versin?

*– Məsələn, bölgə teatrlarına. Hər pyes yazan hesab edir ki, onun əsəri mütləq akademik teatrda səhnəyə qoyulmalıdır...*

– Yaxşıdırsa, niyə də yox? Hamımız oralarda qoyulan əsərləri də bilirik axı. Digər tərəfdən, mənim üçün bölgü fərqi yoxdur, təki yaxşı tamaşa alınsın və repertuarda qala bilsin.

*– Yeri gəlmişkən, hansısa bölgə teatrı ilə əlaqəniz varmı?*

– Hazırda iki teatrla iş gedir. Baxın, burada da fərdi qaydada. Mən isə ümumi prosesin, gedişatın davamlılığının tərəfdarıyam. Sanki ölkədə bir-birini tanımaq problemi var.

*– Amma sizin dramaturgiya ilə bağlı dəstək alan layihənizi də xatırlayıram.*

– Düzdü, 2020-ci ildə Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqı "British Council Azərbaycan"ın dəstəyi ilə "Yeni dudman" müasir dramaturgiya müsabiqəsi elan etmişdi. Əfsus ki, pandemiya onu da yarımçıq qoydu və aylarla zəhmət çəkdiyim iş də ortada qaldı.

*– Sizcə, dramaturgiyamız cəsarətli deyil, teatrlar istəmir, yoxsa rejissorlar hələ də dünəndə ilişib qalıblar?*

– Məncə, hamı nə isə etmək istəyir. Rejissorlar lap çox istəyir. Sonda teatrları, repertuar siyasətini, nəzarət sistemini qınayırlar. Sizə bir fakt deyim. Bizim istedadlı rejissorumuz İradə Gözəlova pyes axtardığını deyir və gürcü dostu məni ona təqdim edir. Bizim öz ölkəmizdə bir-birimizdən xəbərimiz yoxdur. Bayaq dediyim rabitəsizliyə daha bir sübut.

*– Mənə elə gəlir ki, bu ümidsizlik fonunda heç Azərbaycan tamaşaçısının fikri sizin üçün maraqlı deyil...*

– Niyə, əksinə. Rus dilində yazsam da, əsərlərim başqa ölkələrdə səhnələşdirilsə də, mən daim bizim tamaşaçının da fikir və rəyi barədə düşünürəm.

*– Hazırda nə yazırsınız?*

– Bir ailə hekayəsi – ana və övlad münasibətləri ilə bağlı pyes üzərində işləyirəm. Bayaq dediyim kimi, insanlar arasındakı münasibət, onların daxili dünyası məni daha çox cəlb edir...

*– Uğur olsun.*

**Söhbətləşdi: H.Nizamiqızı**

# Türkiyədə Qarabağ Zəfərinə həsr olunan xatirə sikkəsi hazırlanıb

Türkiyənin Xəzinə və Maliyyə Nazirliyi tərəfindən Azərbaycanın Qarabağ Zəfəri ilə əlaqədar gümüş xatirə sikkəsi hazırlanıb.



Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı bu günlərdə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşdə xatirə sikkəsini ona hədiyyə edib.

Səfir bununla bağlı özünün "Twitter" hesabında paylaşım edib. "Türkiyə haqlı mübarizəsində sonadək Azərbaycanın yanındadır", – deyə Cahit Bağcı qeyd edib.

# Səudiyyə Ərəbistanı ilə diplomatik münasibətlərin 30 illiyi qeyd olunub

Oktyabrın 4-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Səudiyyə Ərəbistanının ölkəmizdə səfərdə olan xarici işlər naziri şahzadə Feysal bin Fərhan əl-Səud tədbirdə iştirak ediblər.



Tədbirdə çıxış edən Ceyhun Bayramov 30 il ərzində iki dövlət arasında əlaqələrin strateji tərəfdaşlıq müstəvisinə yüksəldiyini bildirib. Səudiyyə Ərəbistanının hər zaman Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyi deyən nazir ölkələrimizin regional və beynəlxalq formatlarda da faydalı əməkdaşlığının olduğunu söyləyib. Həmçinin postmünaqişə dövründə Azərbaycanın bölgədə sülh quruculuğunun tərəfdarı və təşəbbüskarı qismində çıxış etdiyi diqqətə çatdırılıb.

Feysal bin Fərhan əl-Səud iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbriklərini tədbir iştirakçılarına çatdırıb. O, hazırda Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında bir sıra birgə layihələrin uğurla icra olunmasından məmnunluqla bəhs edib. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün potensialın mövcud olduğu vurğulanıb.

Sonda iştirakçılar Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

Qeyd edək ki, Səudiyyə Ərəbistanı Krallığı Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci ilin 30 dekabr tarixində tanıyıb. 1992-ci il fevralın 24-də iki ölkə arasında diplomatik əlaqələr qurulub.

# ATMU tələbələri xaricdə istehsalat təcrübəsi keçəcəklər

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) İsrailin ölkəmizdəki səfirinin müavini Doron Peer ilə görüş keçirilib. Bu barədə ATMU-dan məlumat verilib. Söhbət zamanı bildirilib ki, 2008-ci ildən bu günədək ATMU-nun xeyli sayda tələbəsi İsrailin turizm sənayesi müəssisələrində peşəkar vərdişlərə yiyələniblər. Hazırda universitet məzunları təkcə ölkəmizin deyil, dünyanın bir sıra hotellərində məsul vəzifələrdə çalışırlar.



ATMU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Orxan Musa, Turizm və qonaqpərvərlik fakültəsinin dekanı Bahadur Bilalov, Karyera və kommunikasiya şöbəsinin rəhbəri Səidə Məmmədovanın iştirak etdiyi görüşdə universitetin cari tədris ilində də tələbələr üçün İsraildə istehsalat təcrübəsinin təşkil olduğu vurğulanıb. ATMU və İsrailin turizm təhsili verən ali təhsil müəssisələri arasında səmərəli əməkdaşlıq imkanlarının hədəfləri nəzərdən keçirilib.

ATMU-da Fransanın Azərbaycandakı Səfirliyinin əməkdaşlıq və mədəniyyət müşaviri Şarl Dönie ilə keçirilən görüşdə də tələbələrin bu ölkədə istehsalat təcrübəsi keçməsi, həmçinin beynəlxalq təhsil layihələrində birgə iştirak məsələləri müzakirə olunub.

ATMU-nun tələbələri istehsalat təcrübəsi ilə bağlı maraq göstərdiyi ölkələrdən biri də Şimali Kipr Türk Cümhuriyyətidir. Bu məsələ Şimali Kiprin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Turqanerlə görüşdə müzakirə edilib.

# Diaspor fəalları Helsinkidə məlumatlandırıcı aksiya təşkil edib

Finlandiyanın paytaxtı Helsinkidə Ermənistanın ölkəmizin sərhədində törətdiyi son təxribatlarla əlaqədar məlumatlandırıcı aksiya keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, şəhər vağzalının və Tuomiokirkko kilsəsinin önündə baş tutan aksiyalar Helsinki Azərbaycan Evinin rəhbəri, "Azər-Türk" Gənclər Təşkilatının sədri Ülviyyə Cabbarova tərəfindən təşkil olunub.

Azərbaycan bayrağı dalğalandıran aksiya iştirakçıları "Ermənistan, sülh müqaviləsini imzala!", "Ermənistan, regiondakı kommunikasiyaları bərpa et!" və digər şüarların yazıldığı plakatları nümayiş etdiriblər.

Aksiya ilə maraqlanan paytaxt sakinlərinə Ermənistanın ölkəmizə qarşı törətdiyi silahlı təxribatlar barədə məlumat verilib.

# Azərbaycanla mədəniyyət sahəsində əməkdaşlıq etmək istəyirik

Azərbaycanla Cənubi Afrika Respublikası (CAR) arasında diplomatik əlaqələr 1992-ci il 29 aprel tarixində qurulub. 2011-ci ildən Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyət göstərir. Cənubi Afrika Respublikasının (CAR) Türkiyədəki səfiri xanım Dipuo Berta Letsatsi-Duba eyni zamanda Azərbaycanda da akkreditə olunub. Onunla söhbətimizdə iki ölkə arasında mədəniyyət, turizm və digər sahələrdə münasibətlərə toxunduq.



*– Xanım səfir, Azərbaycanla CAR arasında əlaqələrin səviyyəsini necə dəyərləndirirsiniz?*

– Azərbaycanla Cənubi Afrika Respublikası arasında səmimi, qarşılıqlı hörmətə dayanan münasibətlər var. Biz Azərbaycanı CAR üçün çox strateji bir ölkə və tərəfdaş kimi görürük. Azərbaycanda səfirliyimiz olmasa da, münasibətlərimiz yaxşıdır. Bu isə Cənubi Afrikanın Bakıda təmsilçiliyi olacağı təqdirdə əlaqələrin daha da yaxşılaşacağını deməyə əsas verir. Məsələn, Azərbaycan xalqı Cənubi Afrika təmsilçiləri ilə səyahət, işgüzar və digər məsələlərdə ünsiyyət qura biləcəklər.

*– Etimadnamənizi təxminən iki ay öncə Azərbaycan Prezidentinə təqdim etdiniz. Bu həm də sizin Azərbaycana ilk səfəriniz idi. Təəssüratınızı bilmək maraqlı olardı...*

– Prezidentlə görüşümüz qısa sürsə də, şahid oldum ki, cənab İlham Əliyev ölkələrimiz arasında əlaqələrin inkişafında maraqlıdır. Hətta diplomatik baxımdan belə ölkələrimiz arasında əməkdaşlıqda humanist mövqeyi var ki, bu, çox önəmlidir. Azərbaycana gəlincə, həlelik Bakını görə bildim. Gözəl şəhərdir. Azərbaycan xalqının qonaqpərvərliyini, mətbəx mədəniyyətini xüsusi qeyd etmək istərdim. Yeməkləriniz çox rəngarəngdir.

*– Mədəniyyət demişkən, ölkələrimiz arasında mədəni əlaqələrin qurulması barədə nə deyə bilərsiniz?*

– Biz Azərbaycanla mədəniyyət sahəsində əməkdaşlıq etmək istəyirik. Bununla bağlı layihə də hazırlamışıq. Mən Ankarada Azərbaycanın Müstəqillik Günü ilə bağlı bir tədbirdə iştirak etdim. Rəngarəng mədəni nümunələr – fərqli və xoş rəqslər, ifalar gördüm. Azərbaycan mədəniyyəti də bizimki kimi çoxşaxəlidir. Hesab edirəm ki, bu əlaqələri qurmaq üçün öncə Azərbaycanda fəxri konsulluğumuzun, nümayəndəliyin açılması və fəaliyyətini təmin etməliyik.

*– CAR həm də dünyada məşhur turizm istiqamətlərindən biridir. İkitərəfli əlaqələrdə bu sahənin təşviqi üçün nə kimi addımlar atıla bilər?*

– Bizim prioritetlərimizdən ən vacibi ünsiyyətdir. Ünsiyyət və yenə də ünsiyyət. Çünki ölkəmizdə Azərbaycan haqqında çox az adam bilir. Elə Cənubi Afrika haqqında da sizin ölkənizdə yəqin az adamın məlumatı var. Turizmin qarşılıqlı təbliği, tanıdılması üçün uyğun strategiya olmalıdır. Bunun üçün mediada daha çox məlumatların yayılması, turizm agentlikləri, hotellər, qida mədəniyyəti barədə məlumatlandırmanın aparılması vacibdir. Bu istiqamətdə kommunikasiya strategiyamızı da yaxşılaşdırmaq istəyirik.

*– İki ölkə arasında aviareyslərin açılması mümkündürmü?*

> "Bizim prioritetlərimizdən ən vacibi ünsiyyətdir. Çünki ölkəmizdə Azərbaycan haqqında çox az adam bilir. Cənubi Afrika haqqında da sizin ölkənizdə yəqin az adamın məlumatı var. Bu istiqamətdə kommunikasiya strategiyamızı da yaxşılaşdırmaq istəyirik"

– Yaxın gələcəkdə birbaşa uçuşlar mümkün olmayacaq. Lakin turizm müəyyən vasitələrlə təşviq edilə bilər. Məsələn, qruplar qarşılıqlı olaraq səfər edib, ölkələri kəşf edə bilərlər. Birbaşa davamlı reyslər indilik real deyil, amma çarter reysləri mümkündür. Əgər ölkələrimiz arasında razılaşma olarsa, bu reysləri sadəcə, turistlər üçün deyil, hər iki ölkədə iş qurmaq istəyən investorlar, biznesmenlər üçün də təşkil edə bilərik.

*– Ümumiyyətlə, Azərbaycanda akkreditə olunmuş diplomat olaraq ikitərəfli əməkdaşlıqda hansı istiqamətləri prioritet görürsünüz?*

– Əsas hədəfimiz Azərbaycan hökuməti ilə ticari-iqtisadi əlaqələrin artırılması üçün irəli sürülən təşəbbüsləri dəyərləndirib, bu əlaqələrin həcmini artırmaqdır. Çünki pandemiyanın yaratdığı çətinliklər nəticəsində ticarət əlaqələrimiz çox zəifləyib. Dediyim kimi, Azərbaycanı CAR üçün strateji bir ölkə, Afrika qitəsi baxımından isə strateji tərəfdaş kimi gördüyümüz üçün bunun sıx iqtisadi münasibətlərdə də təzahür etməsini istəyirik. CAR Afrika Kontinental Azad Ticarət Zonasını təşviq edir. Bu, Afrikada təxminən 1,3 milyard insanın mal və xidmətləri üçün ən böyük vahid bazar yaratmaq və Afrikanın iqtisadi inteqrasiyasını dərinləşdirmək üçün layihədir. CAR da bu layihənin bir hissəsidir. Azərbaycanı xüsusilə neft, qaz, neft məhsulları təchizatında bizə dəstək verə bilən tərəfdaş hesab edirik. Digər prioritetlərimiz mədəniyyət, turizm, ixrac, xalqlar arasında əlaqələrin inkişafıdır.

*– Azərbaycanın regiondakı yerindən söz düşmüşkən, ölkəmiz uzun illər Ermənistanın işğalı altında qalmış torpaqlarını azad etdi. Bu gün Azərbaycan regionda davamlı sülhün tərəfdarıdır, amma Ermənistan hələ də sərhəddə təxribatlar törədir. Bu barədə fikrinizi bilmək istərdik.*

– Azərbaycan Prezidenti cənab İlham Əliyevə etimadnaməmi təqdim edəndə qısa söhbətimiz zamanı o, bu barədə söz açdı, müharibənin artıq başa çatdığını, Azərbaycanın və bölgənin rifahı üçün yeni quruculuq işlərinin olacağını dedi. Bu pozitiv fikirlər bizdə böyük ümidlər yaradır. Əlbəttə, müharibələr, münaqişələr çox üzücüdür. Azərbaycan-Ermənistan sərhədində baş verən son hadisələri də izləyirdik. Bu gün dünyanın bir sıra yerlərində hərbi münaqişələr var. Ona görə də münaqişələr sülh yolu ilə həll edilməlidir. Daha çox əməkdaşlıq sahələrinə diqqət etməliyik.

*– Xanım Dipuo Berta Letsatsi-Duba, Türkiyə və Azərbaycana səfir təyinatını necə qarşıladınız? Ümumiyyətlə, qadın üçün diplomat olmaq çətin deyil ki?*

– Səfir təyin olunmağım mənim üçün çox həyəcanverici idi. Onu da deyim ki, bu, mənim ilk diplomatik missiyamdır. Prezidentimiz zəng edib Türkiyəyə səfir təyin olunduğumu bildirəndə çox sevindim. Çünki mən 24 il hökumətdə işləmişəm və hər zaman bir diplomatik vəzifə tutmağı xəyal etmişəm. Diplomat olmaq çox maraqlı peşədir. Bu mənim çox sevdiyim bir işdir. Azərbaycana konsul təyinatına da bir qadın diplomatın seçilməsinə çox üstünlük verərdim.

*– Maraqlıdır, niyə qadınlara bu qədər önəm verirsiniz?*

– Çünki ölkələrin çoxunda fəxri konsullar kişilərdir. Mən qadınlara diplomatik sahədə də etimad olunmasının tərəfdarıyam. Qadınlar qərarvermə səlahiyyəti olan vəzifələrə yüksəldilməlidir. Düşünürəm ki, qadınlara fürsət verilsəydi, bu gün dünya çox fərqli olardı. Çünki qadının təbiətində qayğıkeşlik olduğu üçün o hər kiçik bir nüansı insanlarına kimi düşünüb, daha məsuliyyətli və hər bir məsələni düzənə salan qərarlar verə bilər. Məncə, əgər ədalətli qərar vermə mövqeyinə sahib qadınlara səlahiyyət verilsə, dünyamızın daha çox tərəqqi və iqtisadi canlılığa çevrilən gələcəyi olacaq.

*– Bu yaxınlarda Ankarada Güney Afrika Milli Miras Günü keçirildi. Hər il sentyabrın 24-də qeyd etdiyiniz bu günün ölkəniz üçün əhəmiyyəti nədən ibarətdir?*

– Həmin gün bütün cənubi afrikalılar mədəni kimliklərini nümayiş etdirmək, keçmişdən qalan mədəni mirasları qorumaq üçün birləşir. Biz vaxtilə öz qədim mədəniyyətimizi yaşatmaq üçün çətinliklərlə üzləşmiş, bölünməyə məruz qalmış bir cəmiyyətik. Amma sonra sosiallaşdıq və bütünləşdik. Yəni hər kəs fərdi olaraq keçmişdən qalan mədəni mirasını qorumaq üçün özündə bir məsuliyyət hiss etməlidir. Ona görə də CAR Konstitusiyasına görə, 24 sentyabrda Güney Afrikanın Mənəvi Miras və Müstəqillik Gününü milli bayram olaraq qeyd edirik. İnsanlarımıza mədəniyyət, mətbəx, sənət, musiqi kimi fərqli sahələrdə öz mənəvi miraslarını ifadə etmək imkanları yaradırıq. CAR demokratik dövlətçiliyə qədəm qoyduqdan sonra mühüm irəliləyişlər qazanıb, irqçilik və cinsi, dini ayrı-seçkiliyə yol verməden insan ləyaqətinə, hüquq üstünlüyünə çox əhəmiyyət verir. Çünki bu bizə 1948-1994-cü illər arasında ölkəni idarə edən irqçi, aparteid rejiminə qarşı azadlıq mübarizəsinin əfsanəvi adı Nelson Mandeladan miras qalıb. Məhz onun sayəsində CAR Afrika qitəsinin ən sabit və inkişaf etmiş ölkələrindən biri olmağa davam edir.

**Mehparə Sultanova**
**Ankara**

# "Erasmus+" layihəsi üzrə Fransada təlim proqramı

Avropa Komissiyasının maliyyə dəstəyi və Bakı Biznes Universitetinin koordinatorluğu ilə həyata keçirilən "Azərbaycanda rektorlar konfransının yaradılması" adlı "Erasmus+" layihəsi üzrə ilk təlim proqramı Fransada təşkil edilib.

Fransa Beynəlxalq Təhsil Təşkilatında keçirilən tədbirə layihə konsorsiumunun üzvü olan Azərbaycan universitetlərinin rektorları, prorektorları, Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri, digər səlahiyyətli universitet nümayəndələri qatılıblar.

Azərbaycan Turizm və Menecment Universitetin verilən məlumata görə, tədbirdə prorektor Zaur Bağırov və şöbə müdiri Səidə Məmmədova iştirak ediblər.

Tədbirdə iştirakçılar arasında faydalı müzakirə və fikir mübadilələri aparılıb. Rennes Universitetinin prezidenti David Alis tədbirdə onlayn formatda çıxışı zamanı "Rektor konfranslarında komitələrin rolu və fəaliyyəti" mövzusunda geniş təqdimat edib. O, konfransın tərkibində fəaliyyət göstərən müvafiq komitələrin vacibliyinə toxunaraq onların fəaliyyət istiqamətləri, təşkilati strukturu, funksiyaları barədə təcrübələrini bölüşüb.

# Mərhum rəssam-pedaqoq Əbdül Şərifovun xatirəsinə həsr olunmuş sərgi

Xətai Sənət Mərkəzində mərhum rəssam-pedaqoq Əbdül Şərifovun xatirəsinə həsr olunmuş sərgi açılıb.

Tədbirdə rəssamın yaradıcılığından, əsərlərindən bəhs edən "Sənətini paylaşa bilən sənətkar" adlı kitabın təqdimatı da olub.

Mərkəzin direktoru Zahid Əvəzov bildirib ki, sərgidə Əbdül Şərifovun yağlı boya ilə ərsəyə gətirdiyi əsərləri, həmçinin mərhum rəssamın tələbələrinin əl işləri yer alıb: "İnsan var ki, rəssam ola bilər, ancaq pedaqoq ola bilməz. Əbdül Şərifov uzun müddət Xətai Sənət Mərkəzində baş müəllim kimi çalışıb. Biz dost idik. Onun bizi tərk etməsi bizi çox kədərləndirir. Əbdül Şərifovun xatirəsini əbədiləşdirmək üçün onun əsərlərindən ibarət sərgi təşkil etdik".





Xalq rəssamı Arif Hüseynov mərhum həmkarını istedadlı bir sənətkar kimi xarakterizə edib: "Mən Əbdül Şərifovun sənətinə bələdəm, ancaq bu dəfə onun əsərlərinə baxanda onu yenidən kəşf etdim. O, Xətai Sənət Mərkəzində vaxtilə çalışıb və müəllim kimi tələbələr yetişdirib. Tələbələr onun yaddaşıdır. İnsan nə qədər yadda qalırsa, o qədər də sevilir".

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev Əbdül Şərifovun müəllimi olduğunu deyib. Bildirib ki, müəllimlər adətən məşhur rəssam olmaq iddialarını müəllimliyə qurban verirlər. Əbdül Şərifov da belə müəllimlərdən idi.

Əbdül Şərifovun sənət, tələbə yoldaşları və tələbələri mərhum sənətkarla olan xatirələrini bölüşüb, Xətai Sənət Mərkəzinin bu təşəbbüsünü yüksək qiymətləndiriblər.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

# Mədəni dirçəliş və istiqlal yolunun mübarizi

"Doğma dili, doğma ədəbiyyatı olmayan millət öz varlığından danışmağa utanmalıdır"

## Ömər Faiq Nemanzadə – 150

XX əsr Azərbaycan publisistikasının inkişafında mühüm xidmətləri olan ziyalılar arasında görkəmli jurnalist, ictimai xadim, mollanəsrəddinçilərin ideya rəhbərlərindən Ömər Faiq Nemanzadənin də adı vardır. Görkəmli ziyalı ötən yüzilliyin əvvəllərindən Azərbaycan xalqının milli dirçəlişi, azadlığı və mədəni-mənəvi inkişafı uğrunda mübarizəyə qoşulub. Dərin biliyə, elmi dünyagörüşünə və bütöv xarakterə malik qələm sahibi dövrün ziyalıları arasında böyük nüfuz qazanıb.



Bu il Ömər Faiq Nemanzadənin anadan olmasının 150 illiyidir. Görkəmli mətbuat xadiminin yubileyi ilə bağlı Prezident İlham Əliyev tərəfindən oktyabrın 3-də sərəncam imzalanıb. Sərəncamda qeyd olunur ki, ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparıb.

Ömər Faiq Lömən oğlu Nemanzadə 24 dekabr 1872-ci ildə Tiflis quberniyası, Ahıska (Axalsıx) qəzasının Azqur kəndində mömin bir ailədə dünyaya göz açıb. İlk təhsilini kənd molla məktəbində alır. 1882-ci ildə İstanbula gedir və "Fateh" mədrəsəsində təhsilini davam etdirir. Sonra "Darüş-şəfəq" məktəbinə daxil olur. Təhsilini 1891-ci ildə müvəffəqiyyətlə başa vurduqdan sonra Qalata poçt və teleqraf idarəsində əmək fəaliyyətinə başlayır. Burada qəzet və jurnallar vasitəsilə Avropadakı demokratik ruhlu türk mühacirlərini tanıyır. İnqilabi ruhlu türk şairlərin yaradıcılığı ilə yaxından tanış olur. Köhnə idarəçiliyə qarşı mübarizə aparan gənclər hərəkatına qoşulur. Ancaq gündən-günə gərginləşən ictimai-siyasi vəziyyətə və təqiblərə davam gətirə bilmir. 1894-cü ildə Ahıskaya qayıdır.

Ömər Faiq maarif və mədəniyyət sahəsinin demokratik ruhlu insanları ilə görüşür, bilik və bacarığını xalqının azadlığı uğrunda mübarizəsinə yönəldir. 1894-cü ildə Şəkidə yeni açılan yeni üsullu məktəbdə dünyəvi elmlərdən dərs deməyə başlayır. İstanbuldan gətirdiyi demokratik ruhlu əsərləri gənclərə paylayır. Sonra M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" pyesini səhnə üçün hazırlayır. Müsyö Jordan rolunda isə özü çıxış edir. 1896-cı ilin yazında ağır xəstələnir. Həkimin məsləhəti ilə Gəncəyə, Hacıkəndə gedir. 1896-1898-ci illərdə xəstəlik üzündən Abastumanda və Azqurda qalır. Ahıskada milli məktəb açmaq istəyir. Bununla bağlı müvafiq quruma ərizə ilə müraciət etsə də, müsbət cavab almır. Xəstəlikdən sağaldıqdan sonra 1898-ci ildən 1900-cü ilə kimi Şəki şəhərində məscidin nəzdindəki məktəbdə müəllim işləyir. Orada dini dərslərin tədrisini azaltmaqla hesab, coğrafiya, tarix və dil fənlərinə geniş yer verir.

Ömər Faiq Nemanzadə 1900-cü ildə Bakıya gəlir. Şəhərdə milli məktəblərin azlığını, sadə xalqın acınacaqlı vəziyyətdə yaşamasını görən ziyalı deyir: "Əgər Tağıyevin açdığı qız məktəbini görməsəydim, Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim". Ömər Faiq həmin il Şamaxıya gedir. Burada milli məktəbin təşkil edilməsinə yaxından yardım göstərir. Şamaxıda tarix, coğrafiya, hesab və türk dilindən dərs deyir. 1902-ci il yanvarın 31-də Şamaxıda güclü zəlzələ baş verir və Ömər Faiq Tiflisə qayıdır.



Soldan sağa: Əlisgəndər Cəfərzadə, Cəlil Məmmədquluzadə, Həmzət bəy Qəbulov-Şirvanlı, Sultanməcid Qənizadə, Ömər Faiq Nemanzadə, Qurbanəli Şərifzadə

Görkəmli maarif xadimi 1903-cü ildə əsası qoyulan "Şərqi-Rus" qəzetində Məhəmməd ağa Şahtaxtılı, Cəlil Məmmədquluzadə, Səməd ağa Qayıbov, Üzeyir Hacıbəyli, Rəşid İsmayılov, Əsəd Babayev və Yusif Əfəndizadə ilə birgə işləyir. Burada Mirzə Cəlillə daha yaxından tanış olur və onlar əməl, əqidə dostuna çevrilirlər. Bu birlik təkcə Azərbaycanda deyil, müsəlman Şərqində ilk satirik məcmuənin yaranması ilə nəticələnir. 7 aprel (yeni təqvimlə 20 aprel) 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının birinci sayı çapdan çıxır.

Ömər Faiq "Molla Nəsrəddin" dərgisində çap olunan bir məqaləsində yalançı hürriyyətpərəstlərə müraciətlə yazırdı: "Əgər hürr yaşamaq istəyiriksə, dəliqanlı cavanlarımızı qurban verməliyik. Qurban verdikdən sonra isə onları ağlamaqla, uzun yas saxlamaqla özümüzü taqətdən salmamalıyıq. Dübarə qurban verməməliyik, təki hürriyyət xalqın qanı ilə qazandığı halal malı olsun. Əgər oturub gözləsək və başımızı boş danışıqlarla qarışdırsaq, dilimizdə hürriyyət sözü bitsə də, onun bəhrəsi olmayacaqdır".

Ömər Faiq "Molla Nəsrəddin"in idarə edilməsində böyük səlahiyyət sahibi olub. Bunu 1911-ci ildə C.Məmmədquluzadənin jurnalın müvəqqəti redaktoru Məmmədəli Sidqiyə göndərdiyi məktub da sübut edir: "Əzizim Məmmədəli!… Bunu sənə əvvəllər də istəyirdim yazım ki, Faiq Əfəndi bundan sonra oranın sahibi-ixtiyarıdır, hərtərəfli".

Ö.F.Nemanzadə təkcə "Molla Nəsrəddin"də deyil, o dövrdə nəşr edilən bir sıra qəzet və jurnallarda, o cümlədən "Açıq söz", "Tərəqqi", "İrşad", "Həyat", "Rəncbər", "Bağban" və s. çıxış edib. Yazıları "Ömər Faiq Nemanzadə", "Ümidvar", "Ümid" və s. imzalarla dərc edilib. Dövrün bir sıra mühüm ictimai-siyasi məsələləri haqqında müxtəlif mətbuat orqanlarındakı fəaliyyəti onu müasirlərinə yetkin qələm sahibi kimi tanıdıb. Bütün fəaliyyətini türkçülük ideologiyası üzərində quran Ö.F.Nemanzadənin "Dilimiz, yazımız", "Dərdimiz və dərmanımız", "Eşq və məhəbbət", "Milliləşmək", "Gürcü siyasətçiləri", "Millətpərəstlik zamanıdır", "İşığımız sönməyəcəkdir" və digər məqalələri böyük rezonans doğurmuşdu. "Doğma dili, doğma ədəbiyyatı olmayan millət öz varlığından danışmağa utanmalıdır" deyən ziyalı məqalələrində bu mövzunu həmişə diqqətdə saxlayırdı.

Ö.F.Nemanzadə Ahıskada erməni və gürcü separatçı dəstələrinin terror fəaliyyətini öz gözləri ilə görmüşdü. Bir sıra məqalələrindən aydın olur ki, o, Gürcüstanda geniş səs salmış "Gürcü işi" adlı əməliyyatın başlanması ilə əlaqədar öz ictimai-siyasi fəaliyyətini dayandırıb Gəncə şəhərinə köçüb, ictimai-siyasi fəaliyyətini burada davam etdirib.

İctimai-siyasi xadim kimi də tanınan Ömər Faiq doğma el-obasında gedən proseslərin mərkəzində olub. 1918-ci ilin əvvəlində qurulan "Ahıska Hökuməti-Müvəqqətəsi"nə hökumət rəisi seçilib. Həmin ilin mayında Gürcüstan müstəqilliyini elan edəndən və menşeviklər hakimiyyəti ələ alandan sonra bu qurum ləğv olunur. Ancaq o, Ahıska və Axalkələk əyalətlərinin muxtariyyəti uğrunda mübarizəsini davam etdirir. Menşeviklər tərəfindən üç dəfə həbs olunur və Metex qalasına salınır. 1918-ci ildə həbsxanada Ömər Faiqlə görüşən istiqlal şairimiz Əhməd Cavad yazırdı: "Mən bu həqarəti yalnız Ömər Faiqə deyil, millətimə edilmiş hesab etdiyimdən gürcü millətinin dostluğunu ürəyimdə saxlamaqla gürcü hökumətinə qələm dostlarım adından etiraz edirəm. Ömər Faiq təkcə Axalsıxın deyil, bütün millətin xadimidir". Bir müddət sonra xalqın tələbi ilə milli düşüncə sahibi həbsdən azad edilir.

Ömər Faiq 1920-ci ildə Gəncə Ziraət (kənd təsərrüfatı) Texnikumunun direktoru təyin edilir. 1920-1921-ci illərdə "Zəhmətkeşlərin gözü" jurnalının redaktoru olur, Gürcüstanda müsəlman işləri üzrə komitənin sədri təyin edilir. 1923-cü ildə bir daha Azərbaycana qayıdır. 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə başlayır, dərsliklərin hazırlanması və çapı üzrə fəaliyyət göstərir.

Böyük maarifçinin xalqının azadlığı uğrunda davamlı mübarizəsi 30-cu illər repressiyası zamanı diqqətdən kənarda qala bilməzdi. Onun milli yaddaşın bərpasına, Azərbaycan dilinin qorunmasına və təbliğinə xidmət edən silsilə yazıları artıq əliqanlı rejim üçün tutarlı sübutlar, yerlərdə idarəçiliyi ələ keçirmiş mənfur erməni millətçiləri üçün yaxşı fürsət idi... Ömər Faiq 16 iyul 1937-ci ildə Ahıskada rayon prokuroru Odabaşyanın qərarı ilə həbs olunur. Həmin il oktyabrın 10-da Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığı nəzdindəki "üçlüy"ün qərarı ilə güllələnir.

1958-ci ildə bəraət alan görkəmli fikir adamının parlaq əməlləri, mətbuat və maarifçilik sahəsində yorulmaz fəaliyyəti həmişə minnətdarlıq duyğusu ilə xatırlanacaq.

**Savalan Fərəcov**

# Gənc heykəltəraşın yaradıcılığında Şuşanın tərənnümü



Qarabağımızın incisi, mədəniyyət paytaxtımız Şuşan tarixi əhəmiyyəti və füsunkar təbiəti ilə daima yaradıcı şəxslərin xüsusi diqqətində olub. 2020-ci ilin Vətən müharibəsində müzəffər Ordumuz tərəfindən işğaldan azad edilən qala-şəhərimiz dirçəldikcə yaradıcı gənclərimiz də bu mövzuda yeni əsərlər ərsəyə gətirirlər. Belə gənclərdən biri də heykəltəraş Jalə Əliyevadır.

Jalə Əliyeva 1994-cü ildə Sumqayıt şəhərində anadan olmuşdur. 2015-ci illərdə Əzim Əzimzadə adına İncəsənət Kollecinin Dekorativ-tətbiqi sənət fakültəsini keramika ixtisası üzrə bitirərək sənət yoluna qədəm qoyub. 2019-cu ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında (ADRA) heykəltəraşlıq ixtisası üzrə bakalavr, 2021-ci ildə isə magistr təhsilini tamamlayıb. Hazırda ADRA-nın Heykəltəraşlıq fakültəsində emalatxana müdiri olaraq çalışır.

İlk yaradıcılıq əsərləri zərifliyi, incə plastikası ilə fərqlənən Jalə Əliyeva retro və milli musiqilərə olan sevgisini, filmlərdən olan epizodik anları, ifadə və duyğularını dekorativ heykəl nümunələri ilə tamaşaçıya təqdim edir.

2020-ci ilin Qarabağ savaşından sonra isə heykəltəraşın yaradıcılıq yolu qismən dəyişib. O, şəhidlik zirvəsinə ucalan igidlərimizin portret-büstlərini hazırlayır. 19 yaşında şəhidlik zirvəsinə ucalan Cəbrayıl Dövlətzadənin düşmən önündə əyilməzliyini, cəsarətini yaratdığı portretdə izləyə bilirik. "Vətən yaxşıdır" ifası ilə yaddaşlara həkk olan şəhid Xudayar Yusifzadənin büstü isə xüsusilə seçilir. Müəllifin bu əsərdə şəhid səmimi təbəssümü ilə musiqi notları olan kompozisiyada təsvir olunub. Heykəltəraş büstü Azərbaycan Milli Tarix Muzeyinin fonduna bağışlayıb.

Şuşa şəhərinin zəngin mədəni irsi Jalə Əliyevanın yaradıcılığında xüsusi yer tutur. Onun "Şuşa həsrəti" adlı əsəri "Şuşanın dağları" ifası ilə tanınan xanəndə Xan Şuşinskiyə həsr olunub. Xan Şuşinski qavalabənzər çərçivənin daxilində "muğam triosu" – qaval, tar, kamança əhatəsindədir.





Lirik düşüncə və əlində xarıbülbül ilə sanki "Şuşanın dağları"nı zümzümə edir. Ustad xanəndənin ruhu şaddır, Zəfərimizi sanki duymaqdadır.

"Şuşa minarələri" kompozisiyasının əsasında Şuşa qalası, mərkəzi hissədə isə günəş yer tutmaqdadır. Şuşanın giriş qapısı hesab olunan əzəmətli qala hər zaman əyilməzliyini qoruyub. Minarələr isə milli musiqi alətlərimizlə, günəşin şəfəqləri ilə daha da parlaqdır.

"Bayatı-Şiraz" muğamını əks etdirən əsərdə heykəltəraş muğam üçlüyü olan tar, qaval, kamança ilə maraqlı bir görüntü yaratmağı bacarıb. Tar üzərində ornamentlər və Yuxarı Gövhər ağa məscidi minarələri memarlıq elementləri ilə xüsusi musiqili vəhdətdədir.

"Şur" adlı kompozisiyada "Şur" muğamını ifa edən sənətçilər sanki musiqi festivalında, dinləyicilərin önündədir. Jalə Əliyeva bu əsərlə Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının "Sönməz günəşin dəryası" müsabiqəsində iştirak edərək III yerə layiq görülüb.

Mədəniyyət paytaxtımız Şuşa bundan sonra hələ çox sənət əsərlərinə mövzu, ilham qaynağı olacaq. Yaradıcı gənclərimizi bu yolda yeni sənət üfüqləri gözləyir.

**Dilarə Əsədli**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

## Xatirə təqvimi — 8-11 oktyabr

### Azərbaycan

**8 oktyabr 1951** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (1951 – 26.4.2021) Masallı rayonunun Bədələn kəndində anadan olub.

**8 oktyabr 1975** – Əməkdar artist Rəşid Səməndər oğlu Rzayev (1975 – 20.11.2020) anadan olub. Akademik Milli Dram Teatrında, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**8 oktyabr 2009** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (28.8.1935 – 2009) vəfat edib. "İtkin gəlin", "Əfsanəsiz illər", "Təyyarə kölgəsi" və s. romanların müəllifidir.

**8 oktyabr 2010** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (30.1.1948 – 2010) vəfat edib. Akademik Musiqili Teatrda, Dövlət Mahnı Teatrında çalışıb.

**8 oktyabr 2021** – Xalq artisti, professor Ağakişi Şəmməd oğlu Kazımov (28.6.1935 – 2021) vəfat edib. Musiqili Komediya, Opera və Balet, Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. "Yük" filmində (H.Z.Tağıyev) çəkilib.

**9 oktyabr 1918** – Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarına əsasən, teatr işi Xalq Maarifi Nazirliyinin sərəncamına verilib. Nazirliyə mövcud truppalar əsasında Dövlət Teatrını təşkil etmək tapşırılıb. Dövlət Teatrının rəsmi açılışı 1919-cu il oktyabrın 24-də keçirildi.

**9 oktyabr 1980** – Fəlsəfə elmləri doktoru, professor Şükufə Şamil qızı Mirzəyeva (20.12.1925 –1980) vəfat edib. Estetika tarixi və nəzəriyyəsinə dair tədqiqatların müəllifidir.

**9 oktyabr 1989** – Tanınmış yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (5.12.1927 – 1989) vəfat edib.

**10 oktyabr 1907** – Şair, ədəbiyyatşünas Hümmət Əli oğlu Əlizadə (1907-1941) anadan olub.

**10 oktyabr 1911** – Tanınmış ədəbiyyatşünas alim, tərcüməçi, mətnşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Abbas Fəttah oğlu Zamanov (1911 – 1.4.1993) Naxçıvanın Şərur rayonunda anadan olub.

**10 oktyabr 1912** – Əməkdar artist Rza Abbas oğlu Nadirov (1912-1995) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**10 oktyabr 1935** – Əməkdar incəsənət xadimi, şair Həmid Abbas (Həmid Məmmədəli oğlu Abbasov; 1935 – 19.11.1999) anadan olub. Bir çox şeirlərinə mahnılar bəstələnib.

**10 oktyabr 1935** – Şair, dramaturq Şəkər Aslan (Şəkər Mirzə oğlu Aslanov; 1935 - 13.7.1995) Lənkəran rayonunda anadan olub.

**10 oktyabr 1939** – Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru elmi dərəcəsi almış ilk azərbaycanlı qadın-ərəbşünas, professor Aida Nəsir qızı İmanquliyeva (1939 – 19.9.1992) Bakıda doğulub. Yeni dövr ərəb ədəbiyyatına dair tədqiqatların müəllifidir. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru (1991-1992) olub.

**10 oktyabr 1976** – Ustad xanəndə, Qarabağ muğam ifaçılığı ənənələrinin davamçısı Ağabala Məmmədbağır oğlu Abdullayev (1910–1976) vəfat edib. Füzuli rayonunda yaşayıb, bir çox xanəndələrin müəllimi olub.

**10 oktyabr 2015** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (26.12.1950 – 2015) vəfat edib. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**11 oktyabr 1919** – Əməkdar artist Əyyub Cəfər oğlu Məmmədov (1919-1978) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**11 oktyabr 1938** – Yazıçı-jurnalist, tərcüməçi Emil Güləli oğlu Ağayev (1938-2016) Qazaxıstanın Çimkənd şəhərində doğulub. "Qara gölün cəngavərləri" bədii filminin, sənədli filmlərin ssenari müəllifidir.

**11 oktyabr 1983** – Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Hüseyn oğlu Rəhimov (22.3.1900 – 1983) vəfat edib. Əsərləri: "Şamo", "Ağbulaq dağlarında", "Mehman", "Qafqaz qartalı" və s. Azərbaycan Yazıçılar Birliyinin sədri olub.

### Dünya

**8 oktyabr 1848** – Flamand əsilli fransız musiqiçisi, "İnternasional" himninin bəstəkarı Pyer Degeyter (Pierre Degeyter; 1848-1932) anadan olub.

**8 oktyabr 1892** – Rus şairi, yazıçı Marina Svetayeva (1892 – 31.8.1941) anadan olub. Əsərləri: "Qırmızı at üstündə" (poema), "Mənim Puşkinim", "Əsir ruh" (nəsr) və s.

**8 oktyabr 1936** – Rusiyanın Xalq artisti, məşhur aktyor Leonid Kuravlyov (1936 – 30.1.2022) anadan olub. 200-dək filmdə çəkilib.

**9 oktyabr 1835** – Fransız bəstəkarı Şarl Kamil Sen-Sans (Charles Camille Saint-Saens; 1835-1921) anadan olub. Operaları: "Sarı şahzadə", "Samson və Dalila", "Gümüş zınqırov" və s.

**9 oktyabr 1862** – Türkiyə yazıçısı Fatma Aliyə Topuz (1862-1936) İstanbulda doğulub. Türk ədəbiyyatının ilk qadın romançısı kimi tanınıb. Əsərləri: "Refet", "Cövdət paşa və zamanı" və s.

**9 oktyabr 1926** – Rus aktyoru, SSRİ Xalq artisti Yevgeni Evstiqneyev (1926-1992) anadan olub. Filmləri: "Avtomobildən qorun", "Baharın on yeddi anı", "İtalyanların Rusiyada ağlasığmaz macəraları".

**9 oktyabr 1940** – İngilis musiqiçisi, "The Beatles" qrupunun yaradıcılarından biri Con Lennon (John Lennon; 1940 – 8.12.1980) anadan olub.

**10 oktyabr 1813** – İtalyan bəstəkarı Cüzeppe Verdi (Giuseppe Fortunino Francesco Verdi; 1813 – 27.01.1901) anadan olub. "Riqoletto", "Traviata", "Aida" operaları dünya musiqi xəzinəsinə daxildir.

**10 oktyabr 1892** – Serb-xorvat yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1961) laureatı İvo Andriç (1892-1975) anadan olub. Romanları: "Drin üzərində körpü", "Travnisk xronikası" və s.

**10 oktyabr 1913** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1985) laureatı Klod Simon (Claude Simon; 1913-2005) anadan olub. Əsərləri: "Farsal döyüşü", "Flandriya yolları", "Qadınlar".

**10 oktyabr 1930** – İngilis dramaturqu, ssenarist, şair, ədəbiyyat üzrə Nobel mükafatı (2005) laureatı Harold Pinter (1930-2008) anadan olub. Pyesləri: "Məşuq", "Evə qayıdış", "İtirilmiş zamanın axtarışında".

**11 oktyabr 1885** – Fransız yazıçısı, şair və dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1952) laureatı Fransua Moriak (François Mauriac; 1885-1970) anadan olub. "Məhəbbət səhrası", "İlan yığnağı", "İsanın həyatı", "Quzu" romanları, "Asmodey" pyesi və s. əsərlərin müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

## Milli Kitabxanada "Əhməd Cavad – 130" adlı elektron daycest hazırlanıb

Əhməd Cavadın 130 illiyi haqqında ölkə başçısının müvafiq sərəncamının icrası ilə bağlı Mədəniyyət Nazirliyinin Tədbirlər Planına uyğun olaraq, Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Əhməd Cavad – 130" adlı elektron daycest (xülasə-toplu) hazırlanıb.

Elektron daycestin hazırlanmasında əsas məqsəd geniş istifadəçi kütləsini şairin həyat və yaradıcılığı, ölməz irsi haqqında dərc olunmuş materiallarla tanış etməkdir.

Əhməd Cavad ilə bağlı 2018-2022-ci illərdə dövri mətbuat səhifələrində dərc edilmiş məqalələr araşdırılaraq seçmə yolu ilə istifadəçilərin diqqətinə təqdim olunub. Məqalələr illər üzrə, daxildə isə əlifba ardıcıllığı ilə verilib.

# "Sosialist realizmini xatırlayarkən..."

## Moskvada Azərbaycan heykəltəraşlarının 1940-1950-ci illərə aid işlərinin sərgisi

Moskvadakı Dövlət Şərq Muzeyində Heydər Əliyev Fondunun dəstəyi ilə "Sosialist realizmini xatırlayarkən. Azərbaycan. 1940-1950-ci illərin dəzgah heykəltəraşlığı" adlı sərgi açılıb.

Sərgidə Azərbaycanın məşhur heykəltəraşlarının Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş əsərləri nümayiş etdirilir. Ekspozisiyaya Azərbaycanın Xalq rəssamları Cəlal Qaryağdı, Fuad Əbdürrəhmanov və Pinxos Sabsayin, SSRİ Rəssamlar İttifaqının üzvü Elcan Şamilovun, Hüseyn Əhmədovun işləri daxil edilib.

Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin humanitar proqramlar şöbəsinin rəhbəri Tamilla Əhmədova sərginin açılışında çıxış edib. Bildirib ki, layihə Şərq Muzeyi ilə Heydər Əliyev Fondu arasında səmərəli əməkdaşlığın daha bir nümunəsidir: "Doğru deyirlər ki, incəsənət dünya siyasətində yumşaq qüvvədir. İncəsənətin sayəsində xalqlar bir-birinə yaxınlaşır, bir-birini anlayır. Heydər Əliyev Fondu da incəsənətin yaradıcı qüvvəsini anlayaraq həm Azərbaycanın, həm də başqa ölkələrin milli sərvətlərinin qorunub saxlanılması üzrə çox böyük iş aparır. Fikrimcə, bu sərgi bizim birgə təşəbbüslərimiz silsiləsində sonuncu layihə olmayacaq. Belə tədbirlər Rusiya ilə Azərbaycan arasında dostluq, mehriban qonşuluq münasibətlərinin tərkib hissəsidir...".



T.Əhmədova sosialist realizminə milli kolorit gətirmiş Azərbaycan heykəltəraşları, fırça və tişə ustaları barədə məlumat verib. Qeyd edib ki, belə sənətkarların əsərləri artıq klassikaya çevrilib.

Şərq Muzeyinin direktoru Aleksandr Sedov bildirib ki, bu sərgini Azərbaycan Milli Xalça Muzeyi ilə birgə keçirilən "Sovet Azərbaycanın əks-sədası. Xalça. Tikmə. Plakatlar" sərgisinin davamı hesab etmək olar. O deyib: "Biz öz saxlanclarımızda məşhur Azərbaycan heykəltəraşlarının gözəl işlərini tapdıq. Bu işlər muzeyin kolleksiyasına 1950-1960-cı illərdə daxil olub. İncəsənət əbədidir, sosialist realizmi incəsənəti də maraqlıdır".

Muzeyin direktoru Azərbaycanın klassik dəzgah heykəltəraşlığı sənəti nümunələrinin bərpasında iştiraka görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Azərbaycanın Rusiyadakı Səfirliyinin müşaviri Zaur Paşayev də sərginin əhəmiyyətindən söz açıb və tədbir iştirakçılarına səfir Polad Bülbüloğlunun təbriklərini çatdırıb.

Şərq Muzeyinin Elmi bərpa şöbəsi müdirinin müavini Olqa Myaqkova eksponatların bərpası prosesi barədə məlumat verib.

Oktyabrın 30-dək davam edəcək sərginin eksponatları daha sonra Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda nümayiş etdiriləcək.

# Tekirdağda "Şuşa İli" çərçivəsində konsert və sərgi

Azərbaycan Mədəniyyət Nazirliyi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Tekirdağ Valiliyinin təşkilatçılığı, Xəzər Folklor Təhsil və Araşdırma Mərkəzinin ("Hazarfem" dərnəyi) dəstəyi ilə Tekirdağ şəhərində Azərbaycan sənətçilərinin iştirakı ilə konsert keçirilib.

"Bir millət, iki dövlət!" şüarı altında "Şuşa İli" çərçivəsində keçirilən konsertdə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və "Cəngi" rəqs ansamblının ifasında "Vətən süitası", "İgidlər", "Naz eləmə", "Uzundərə", "Yallı", "Sarı gəlin", "Bayram" kimi milli rəqslərimiz nümayiş etdirilib, Azərbaycan musiqi nümunələri səslləndirilib.



Tədbirdə Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, Tekirdağ valisi Aziz Yıldırım, "Hazarfem"in başqanı Nuran Acar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və şanlı Zəfərimiz haqqında danışıblar. Bildirilib ki, "Şuşa İli" ilə bağlı qardaş Türkiyədə də silsilə tədbirlər keçirilir. Konsert proqramı tamaşaçılar tərəfindən coşqu və rəğbətlə qarşılanıb.

Konsertin keçirildiyi məkanda Azərbaycana həsr olunan "Qardaş köməyi" adlı fotosərgi də açılıb. "Şuşa İli" çərçivəsində Azərbaycanın Mədəniyyət Nazirliyi, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi və Tekirdağ Valiliyinin təşkilatçılığı, Türkiyə Foto Sənəti Federasiyasının dəstəyi ilə təşkil olunan sərgidə türkiyəli fotoqraf Hakan Tokuçun ölkəmizdə çəkdiyi şəkillər nümayiş olunub.

Mərasimdə çıxış edən Hakan Tokuç iki hissədən ibarət sərgidə ümumilikdə 65 fotonun nümayiş etdirildiyini bildirib. Birinci hissə Bakıdakı Heydər Əliyev Mərkəzinə, ikinci hissə Azərbaycanda İslam mədəni irsinə və məscidlərə həsr olunub.

# Türk dünyasında qadın və moda

## "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada beynəlxalq simpozium

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un təşkilatçılığı ilə 5-ci Etnomoda həftəsi çərçivəsində Bursada "Türk dünyasında qadın və moda" beynəlxalq simpoziumu keçirilib.

Bursa Böyükşəhər Bələdiyyəsi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), TÜRKSOY, Başkent Universiteti və Bursa Uludağ Universitetinin dəstəyi ilə təşkil edilən simpoziumun açılışı oktyabrın 5-də Tayyare Mədəniyyət Mərkəzində olub.

Bursa Böyükşəhər Bələdiyyəsinin sədrinin müavini Halide Serpil Şahin 2022-ci ilin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi daha bir beynəlxalq tədbirə ev sahibliyi etməkdən məmnun olduqlarını bildirib.

TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı da simpoziumun önəmindən bəhs edib: "Ortaq türk mədəniyyətini təbliğ etmək üçün bir araya gəldik. Qədim türk ənənəsinə görə qadınlarımız türk cəmiyyətlərində çox mühüm yer tutur. Mədəniyyətimizin heç bir mərhələsində qadın kişilərlə müqayisədə zəif məxluq kimi görünməmiş, əksinə, qadın və kişi bir-birinin həyat və mübarizə yoldaşı olmuşlar. Tarix boyu qadınlarımız ehtiyac olan anlarda öz fədakarlıqları və dəyanətləri ilə bunu dəfələrlə sübut etmişlər... Türklər tarix boyu geniş coğrafiyalarda hökm sürmüşlər. Bu gün biz başəriyyətin ortaq dili olan dəb vasitəsilə həm Türk dünyasına, həm də bütün dünyaya bənzərsiz türk mədəniyyətinin zənginliyini elan etmək istəyirik".



Açılış mərasimindən sonra türk respublikalarından tədbirə qatılan modelyer və rəssamlar foyedə əl işləri sərgisini ziyarət ediblər.

Sessiyalarla davam edən tədbir oktyabrın 6-da axşam Merinos Atatürk Konqres və Mədəniyyət Mərkəzində "Türk dünyasında qadın və moda nümayişi" ilə yekunlaşıb.

**Mehparə Sultanova**
**Ankara**

# Türküstan vilayətində Azərbaycanın mədəni irsinə həsr olunmuş tədbir

Qazaxıstanın Türküstan vilayətində "Azərbaycan dili, mədəniyyəti və adət-ənənələri" mövzusunda tədbir keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, "Qarabağ" Azərbaycan Etnomədəni Birliyinin təşkilatçılığı ilə Türküstanın Sayram rayonunun Karasu kəndində baş tutan tədbirdə yerli hakimiyyət orqanlarının, Qazaxıstan Xalq Assambleyasının, ictimaiyyətin, kütləvi informasiya vasitələrinin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Birliyin sədri Ramilə Mustafayeva qeyd edib ki, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız milli kimliyi, doğma dili, Azərbaycanın zəngin mədəni irsi ilə qürur duyur və bu xəzinəni yaşadıqları ölkələrdə həvəslə təbliğ edirlər. Tədbirdə Azərbaycanın adət-ənənələrini əks etdirən mərasimlər, xalq mahnıları və milli rəqslərimizdən ibarət bədii proqram təqdim olunub.

# Ölkəmiz Mərakeşdə Sufi Mədəniyyəti Festivalında təmsil olunacaq

Oktyabrın 22-dən 29-dək Mərakeşin Fəs şəhərində 15-ci Sufi Mədəniyyəti Festivalı keçiriləcək. Ənənəvi festivalda bu il ölkəmiz tərəfdaş qismində təmsil olunacaq. Təşkilat komitəsi Beynəlxalq Muğam Mərkəzini (BMM) rəsmi tərəfdaşları sırasına daxil edib.

Bu barədə Parisdəki "Mərakeş Evi"ndə (Maison du Maroc) keçirilən mətbuat konfransında məlumat verilib.

Festivalın prezidenti Fauzi Skali sufi mədəniyyəti haqqında məlumat verərək bildirib ki, sufizm rasional seçimlərimizdən daha çox insanı canlandıran və hidayət edən daxili həyatın reallığına əsaslanır.



Tədbirdə festivalın proqramı və iştirakçı ölkələri də diqqətə çatdırılıb. Bildirilib ki, Azərbaycan artıq bir neçə ildir Fəs Festivalında iştirak edir. Mətbuat konfransında Azərbaycanda sufiliyin tarixindən də söz açılıb. Həmçinin 2008-ci ildən UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, türk tarixinin, ənənəsinin, inancının bir parçası olan "Səma rəqsi" haqqında da məlumat verilib.

Qeyd edək ki, festivalda BMM-in solistləri – xanəndələr Mirələm Mirələmov, Kamilə Nəbiyeva rəngarəng proqramla çıxış edəcəklər. Xanəndələri nağarada Əməkdar artist Kamran Kərimov, tarda Zaki Vəliyev, kamançada Elnur Mikayılov müşayiət edəcək.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 210 il əvvəl...

**10 oktyabr 1812-ci ildə** Birinci Rusiya-İran müharibəsinin (1894-1813) yekunlarına əhəmiyyətli təsir edən Aslandüz döyüşü baş verib. Döyüşdə qalib gələn ruslar Talış (Lənkəran) xanlığı ərazisinin böyük hissəsini işğal ediblər. Həmin ilin dekabrında Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan faktiki olaraq rusların nəzarətinə keçdi.

### 110 il əvvəl...

**9 oktyabr 1912-ci ildə** "Balkan ittifaqı"nda birləşən ölkələrin (Bolqarıstan, Yunanıstan, Serbiya, Çernoqoriya) Osmanlı imperiyasına qarşı müharibəsi başlayıb. Bir neçə əsr Osmanlının tərkibində olan bu ölkələr 1877-1878-ci illərin Balkan müharibəsi nəticəsində nisbi müstəqillik əldə etmişdi. Osmanlı müharibədə məğlub oldu və 1913-cü il mayın 30-da Londonda imzalanan sülh sazişinə görə, Avropa qitəsindəki bütün ərazilərini itirdi.

### 82 il əvvəl...

**8 oktyabr 1940-cı ildə** Hitlerin Avropada işğal yürüşü davam edib. Almaniya qoşunları Rumıniyanı işğal edib, Rumıniya kralı ölkədən qaçıb.

### 73 il əvvəl...




**7 oktyabr 1949-cu ildə** SSRİ-nin nəzarətində olan Şərqi Almaniyada müstəqil dövlətin – Almaniya Demokratik Respublikasının yarandığı elan edilib. Bundan öncə (23 sentyabr 1949-cu il) Qərb müttəfiqlərinin (ABŞ, Britaniya və Fransa) sektorunda Almaniya Federativ Respublikası yaranmışdı.

### 60 il əvvəl...

**9 oktyabr 1962-ci ildə** Britaniyanın Şərqi Afrikadakı protektoratı olan Uqanda müstəqilliyini elan edib.

### 54 il əvvəl...

**10 oktyabr 1968-ci ildə** İspaniyanın Mərkəzi Afrikadakı müstəmləkəsi olan Qvineya müstəqilliyini (Ekvatorial Qvineya Respublikası) elan edib.

### 31 il əvvəl...

**9 oktyabr 1991-ci ildə** Ali Sovetin növbədənkənar sessiyasında "Azərbaycan Respublikanın milli özünümüdafiə qüvvələri haqqında" qanun qəbul edilib. 1998-ci ilədək 9 oktyabr Azərbaycanda Milli Ordu günü kimi qeyd olunurdu. Həmin il Prezident Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaranma tarixi (26 iyun 1918-ci il) Silahlı Qüvvələr Günü kimi elan edildi.

### 30 il əvvəl...

**9 oktyabr 1992-ci ildə** Bakıda, "Azadlıq" meydanında Azərbaycan Milli Ordusunun ilk hərbi paradı keçirilib.

### 28 il əvvəl...

**7 oktyabr 1994-cü ildə** Prezident Heydər Əliyev fərmanı ilə Surət Hüseynov Baş nazir vəzifəsindən azad edilib, Nazirlər Kabinetinə rəhbərlik Baş nazirin müavini Fuad Quliyevə həvalə olunub. Dövlət çevrilişi cəhdində (3-4 oktyabr) iştirakda günahlandırılan S.Hüseynov bir gün öncə Milli Məclisin üzvlüyündən də azad edilmişdi. Ölkəni tərk edərək Rusiyaya gedən S.Hüseynov 1996-cı ildə orada həbs edilərək Azərbaycana gətirildi. 2004-cü ildə Prezident İlham Əliyevin əfv fərmanı ilə həbsdən azad olundu.

### 25 il əvvəl...

**9 oktyabr 1997-ci ildə** Strasburqda Avropa Şurasının zirvə toplantısı çərçivəsində Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova prezidentlərinin görüşü keçirilib. Görüşdə regional təhlükəsizlik və əməkdaşlıq sahəsində yeni məşvərətçi formatın – GUAM qrupunun yaradılması qərara alınıb.

**10 oktyabr 1997-ci ildə** Strasburqda Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyev və Levon Ter-Petrosyan arasında görüşdən sonra iki lider bəyanatla çıxış edərək Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair ATƏT Minsk qrupu həmsədrlərinin "mərhələli həll" planını qəbul etdiklərini bildiriblər. Bundan sonra Ermənistanda Ter-Petrosyan əleyhinə çıxışlar başladı və o, 1998-ci ilin yanvarında istefa verdi.

### 21 il əvvəl...

**7 oktyabr 2001-ci ildə** Birləşmiş Ştatlar 11 sentyabr terroruna cavab olaraq Əfqanıstanda antiterror əməliyyatına başlayıb. ABŞ-ın əksər müttəfiqlərinin iştirak etdiyi "Əyilməz azadlıq" adlı əməliyyat 2002-ci ilin yanvarında Əfqanıstanın "Taliban" rejiminin süqutu ilə başa çatdı. 2021-ci ildə amerikalılar Əfqanıstanı tərk etdikdən sonra "Taliban" yenidən hakimiyyətə qayıtdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə ittifaqın üzvləri adından bəstəkar, Xalq artisti, professor, təşkilatın İdarə Heyətinin üzvü Azər Dadaşova bacısı

**Dadaşova Afər İsmayıl qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB** 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2890
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641